# QORXU IÇINDƏ QAÇIŞ

## Azərbaycanın susdurulmuş səsləri




2012

**Bu hesabatı tərtib etdi:**

ARTICLE 19
Free Word Centre
60 Farringdon Road
London
EC1R 3GA
Birləşmiş Krallıq

Tel: +44 20 7324 2500
Faks: +44 20 7490 0566
E-mail: info@article19.org

© ARTICLE 19, London, 2012

**ISBN**: 978-1-906586-31-7

Bu iş Creative Commons Attribution-Non-Commercial-ShareAlike 3.0 lisenziyası ilə təmin olunur.

Siz, aşağıdakı şərtlərlə ödənişsiz qaydada bu hesabatın nüsxəsini çıxara, onu yaya, nümayiş etdirə və ondan istifadə edərək törəmə işlər hazırlaya bilərsiniz:

1. Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupunu məlumatlandırmaq;
2. Bu hesabatdan kommersiya məqsədləri üçün istifadə etməmək;
3. Bu nəşr əsasında hazırlanmış bütün işləri buna oxşar lisenziya əsasında yaymaq. Bu lisenziyanın tam hüquqi mətni ilə tanış olmaq üçün aşağıdakı səhifəni ziyarət edin: http://creativecommons.org/licenses/by-nc-sa/3.0/legalcode.

Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupu bu hesabatda verilmiş məlumatlardan istifadə edilmiş hər hansı materialın bir nüsxəsinin təqdim edilməsini yüksək qiymətləndirir.

Bu hesabat Birləşmiş Krallığın Azərbaycandakı Səfirliyinin mühüm dəstəyi əsasında dərc edilmişdir.

British Embassy
Baku

# Hesabatı dərc etmiş təşkilatların siyahısı

ARTICLE 19: İfadə Azadlığı üçün Qlobal Kampaniya
Azad Söz Mərkəzi
60 Farringdon Road, London EC1R
Birləşmiş Krallıq
Əlaqələndirici şəxs: Rebecca Vincent, ABTQ layihə koordinatoru
E-mail: rebecca@article19.org
Tel: +44 (0) 20 7324 2500
www.article19.org

Jurnalistləri Müdafiə Komitəsi
330 7th Avenue, 11th Floor
Nyu York, NY 10001
Amerika Birləşmiş Ştatları
Əlaqələndirici şəxs: Nina Oqnianova, proqram koordinatoru, Avropa və Mərkəzi Asiya
E-mail: NOgnianova@cpj.org
Tel: +1 212 465 1004
www.cpj.org

İnsan Hüquqları Evi Fondu
Kirkegata 5
0153 Oslo
Norveç
Əlaqələndirici şəxs: Ane Tusvik Bonde, regional menecer
E-mail: ane.bonde@humanrightshouse.org
Tel: +47 22 47 92 47

Index on Censorship
Azad Söz Mərkəzi
60 Farringdon Road, London EC1R 3GA
Birləşmiş Krallıq
Əlaqələndirici şəxs: Natasha Schmidt, redaktor köməkçisi
E-mail: natasha@indexoncensorship.org
Tel: +44 (0) 20 7324 2527
www.indexoncensorship.org

Beynəlxalq Jurnalistlər Federasiyası
Beynəlxalq Mətbuat Mərkəzi
Residence Palace, Block C
Rue de la Loi 155, 1040 Brüssel
Belçika
Əlaqələndirici şəxs: Adrien Collin, layihə əməkdaşı
E-mail: adrien.collin@ifj.org
Tel: +32 2 235 22 03
www.ifj.org

Media Müxtəlifliyi İnstitutu
43-51 Great Titchfield Street
London, W1W 7DA
Birləşmiş Krallıq
Əlaqələndirici şəxs: Pedja Urosevic, kommunikasiya əməkdaşı
E-mail: pedja.urosevic@media-diversity.org
Tel: +44 (0) 207 2552 473
www.media-diversity.org

Norveç Helsinki Komitəsi
Kirkegata 5, 0153 Oslo
Norveç
Əlaqələndirici şəxs: Berit Lindeman, informasiya bölməsinin rəhbəri/məsləhətçi
E-mail: lindeman@nhc.org
Tel: +47 22 47 92 02
www.nhc.no

Sərhədsiz Reportyorlar Təşkilatı
47 rue Vivienne
75002 Paris
Fransa
Əlaqələndirici şəxs: Johann Bihr, Avropa və Mərkəzi Asiya Departamentinin rəhbəri
E-mail: europe@rsf.org
Tel: +33 1 44 83 84 84
www.rsf.org

Ümumdünya Qəzet və Yeni Naşirlər Assosiasiyası
96 bis rue Beaubourg
75003 Paris
Fransa
Əlaqələndirici şəxs: Rodrigo Bonilla, missiya meneceri
E-mail: rodrigo.bonilla@wan-ifra.org
Tel: +33 1 47 42 85 37
www.wan-ifra.org

# Mündəricat


Hesabatı dərc etmiş təşkilatların siyahısı 2

Minnətdarlıq 6

Qısa xülasə 7

Tövsiyələr 8

1. Giriş 10

2. Frank La Rue tərəfindən ön söz 12

3. Jurnalistlərə qarşı zorakılıq əməllərinə görə cəzasız qalma 13

4. İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə 17

5. İfadə və dinc toplaşma azadlığı: iki tərəfdən güclənən, iki tərəfdən məhdud 22

6. Birləşmə azadlığı: QHT-lərə, insan hüquqları müdafiəçilərinə və vəkillərə təzyiqlər 26

7. Məlumat azadlığı: fundamental hüquq 31

8. İnternetdə ifadə azadlığı 34

9. Mediaya dövlət nəzarəti 39

10. Mediada əxlaq qaydaları, peşəkarlıq və özünütənzimləmə 44

11. Azərbaycanın nüfuz problemi 47

12. Yekunlar 51

Əlavə 1: Hesabatda istifadə olunmuş akronimlərin siyahısı 52

# Minnətdarlıq

Bu hesabat, Azərbaycanda ifadə azadlığının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq QHT-lər koalisiyası - Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupunun (ABTQ) birgə nəşridir.

Hesabatı, hər bir fəsildə göstərildiyi kimi, digər təşkilat və müəlliflərin köməyi ilə ABTQ-nin ARTİCLE 19 üzrə layihə koordinatoru Rebecca Vincent tərtib edib, Rebecca Vincent özü və İndex on Censorship təşkilatının redaktor köməkçisi Natasha Schmidt redaktə ediblər. Dizayn və tərtibat ARTİCLE 19 təşkilatının kommunikasiya mütəxəssisi Rowan Emslie-yə məxsusdur. Günay Rəhimova hesabatı Azərbaycan dilinə, Jana Nikolovska isə fransız dilinə tərcümə etmişdir. Üz qabığındakı təsviri jurnalist və siyasi karikaturçu Aqil Xəlil çəkmişdir.

NİDA Vətəndaş Hərəkatından Turqut Qəmbərə, Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun əməkdaşı Emin Hüseynova, Azadlıq Radiosunun müxbiri Xədicə İsmayılovaya və müstəqil bloqçu və fəal Emin Milliyə bu hesabata verdikləri dəyərli töhfələri üçün xüsusi təşəkkür edirik (adlar əlifba sırası ilə verilmişdir).

Bu hesabata ön söz yazdığı üçün fikir və ifadə azadlığı hüququnun təşviqi və müdafiəsi üzrə BMT-nin xüsusi məruzəçisi Frank La Rue cənablarına da dərin minnətdarlığımızı bildiririk.

# Qısa xülasə

Bu hesabat, Azərbaycanda ifadə azadlığının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar koalisiyası - Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupu (ABTQ) tərəfindən dərc edilmişdir. Hesabatda ABTQ-nin ölkəyə təşkil etdiyi birgə missiyanın tarixindən - 2010-cu ilin sentyabrından 2012-ci ilin mart ayınadək Azərbaycanda ifadə azadlığı ilə bağlı vəziyyət təhlil olunur.

Azərbaycanda ifadə azadlığının cari vəziyyəti narahatlıq doğurur, belə ki, jurnalistlərə qarşı zorakılıq əməlləri və bu əməlləri törədənlər cəzasız qalmaqda davam edir; jurnalistlər, bloqçular, insan hüquqları müdafiəçiləri, siyasi və vətəndaş fəalları hakimiyyətin davamlı olaraq artan təzyiqi, hücumu və müdaxiləsi ilə üzləşir. Bir çoxları isə ənənəvi mətbuat və ya internet vasitəsilə, yaxud da küçələrdə etiraz aksiyaları yolu ilə hakimiyyəti tənqid etdiyi üçün həbs olunur, yaxud başqa üsullarla cəzalandırılır.

Bu hesabatda aşağıdakı məsələlərə toxunulmuşdur: jurnalistlərə qarşı zorakılıq əməllərinin cəzasız qalması; ifadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə; dinc toplaşma azadlığının məhdudlaşdırılması; QHT-lərə, insan hüquqları müdafiəçiləri və vəkillərə qarşı təzyiqlər; məlumat azadlığının məhdudlaşdırılması; internetdə ifadə azadlığı ilə bağlı vəziyyət; mediaya dövlət nəzarəti; mediada əxlaq qaydaları, peşəkarlıq və özünütənzimləmə; və ölkədə ifadə azadlığı ilə bağlı mövcud problemlərə baxmayaraq, Azərbaycanın ölkə xaricində müsbət nüfuz yaratma cəhdləri.

Bu problemləri aradan qaldırmaq və ölkədə ifadə azadlığı ilə bağlı mövcud vəziyyəti yaxşılaşdırmaq üçün ABTQ Azərbaycanın hakim strukturları üçün silsilə tövsiyələr hazırlamışdır. Bu tövsiyələrə daxildir: bu hesabatda verilmiş bir sıra digər tövsiyələrlə yanaşı, ifadə azadlığı hüquqlarından yararlandığı üçün azadlıqdan məhrum olunmuşların dərhal azadlığa buraxılması; jurnalistlərə qarşı törədilmiş bütün zorakılıq əməllərinin ciddi şəkildə araşdırılması və təqib edilməsi; və defamasiyanın dekriminallaşdırılması.

ABTQ-nin hazırda əsas narahatlığı bu il Azərbaycanda keçiriləcək iki mühüm beynəlxalq tədbirlə bağlıdır: Avroviziya Mahnı Müsabiqəsi və İnternet İdarəçiliyi Forumu. Bu tədbirləri, xüsusilə də Avroviziyanı nəzərə alaraq, Azərbaycan hökuməti beynəlxalq arenada Azərbaycanın müsbət nüfuzunu təbliğ etmək üçün səylə çalışır. Lakin hökumət ölkə daxilində ifadə azadlığı və digər əsas azadlıqları məhdudlaşdırmağa davam edir. Bu hesabatın əsas məqsədi narahatlıq doğuran bu məsələləri Azərbaycan hökuməti ilə beynəlxalq əməkdaşlıq məqsədiə münasib bir zamanda işıq üzünə çıxarmaqdır.

Lakin əməkdaşlıq bu tədbirlərlə məhdudlaşmamalıdır. Azərbaycanlı jurnalistlər, insan hüquqları müdafiəçiləri və siyasi fəallarla müzakirələr zamanı tez-tez səsləndirilən sual belədir: Avroviziyadan sonra nə baş verəcək? Beynəlxalq medianın gündəmini işğal edəcək bu qısa müddət ərzində Azərbaycan haqqında həqiqətləri dünyaya çatdıranlar bu beynəlxalq marağın sona çatmasından sonra təzyiqlə üzləşəcəklərindən ehtiyat edirlər. Bu narahatlıqlar əsassız deyil, belə ki bu şəxslərdən bəziləri artıq hakim strukturların hədəfinə çevriliblər. ABTQ bu hesabatın həm qısa, həm də uzun müddət ərzində beynəlxalq ictimaiyyəti Azərbaycanda ifadə azadlığı ilə bağlı vəziyyəti müşahidə etmək və hakimiyyəti öz əməllərinə görə məsul tutmaq cəhdlərini artırmağa məcbur edəcəyinə ümid edir.

# Tövsiyələr

ABTQ Azərbaycanın hakim strukturlarını ölkədə ifadə azadlığı ilə bağlı mövcud vəziyyəti yaxşılaşdırmaq üçün aşağıdakı öhdəlikləri götürməyə çağırır:

**Jurnalistlərə qarşı zorakılıq əməllərinə görə cəzasız qalma:**

- Redaktor Elmar Hüseynov və yazıçı-jurnalist Rafiq Tağının ölümündə təqsirli bilinən şəxslərin müəyyənləşdirilərək ədalət mühakiməsinə təslim edilməsi yönündə səyləri artırmaq;
- Jurnalistlərə qarşı bütün zorakılıq, zorakılıq təhlükələri və hədə-qorxu hallarını ciddi şəkildə araşdırmaq və təqib etmək;

**Tənqidi susdurmaq üçün qanundan siyasi məqsədlərdə istifadə:**

- Bloqçu Bəxtiyar Hacıyev, jurnalistlər, Ramin Bayramov və Aydın Canıyev və insan hüquqları müdafiəçisi Vidadi İskəndərov da daxil olmaqla ifadə azadlığı hüququnu icra etdiyinə görə azadlıqdan məhrum edilmiş bütün şəxsləri dərhal və qeydsiz-şərtsiz azad etmək;
- İfadə azadlığı hüququnu icra etdikləri üçün saxlanmış şəxslərin işləri üzrə aparılan təhqiqat və məhkəmə proseslərinin beynəlxalq normalara uyğun olduğunu təmin etmək;
- Defamasiyanı dekriminallaşdırmaq və mülki defamasiya müddəalarının beynəlxalq normalara cavab verdiyini təmin etmək;
- Azərbaycana faktaraşdırıcı missiya təşkil etməsi üçün tez bir zamanda vizanın verilməsi də daxil olmaqla Avropa Şurası Parlament Asambleyasının xüsusi məruzəçisi Christoph Strässerlə hərtərəfli əməkdaşlıq etmək;
- Qanunla tələb olunan qaydada müvafiq viza və akkreditasiya ilə təmin etmək də daxil olmaqla xarici jurnalistlərin Azərbaycana səfər etməsinə və işlərini müstəqil şəkildə yerinə yetirməsinə imkan yaratmaq;

**Toplaşma azadlığı:**

- 2011-ci ilin mart və aprel aylarında keçirilmiş etiraz aksiyalarında həbs edilmiş yerdə qalan 11 məhbusu dərhal və qeydsiz-şərtsiz azadlığa buraxmaq;
- Dinc aksiyaları yatırmaq üçün hədsiz güc tətbiqini dayandırmaq və nümayişçilərə qarşı hədsiz güc tətbiqinə dair halları ciddi şəkildə araşdırmaq və təqib etmək;
- Müxtəlif qrupların Bakının mərkəzində dinc şəkildə toplaşmasına icazə vermək də daxil olmaqla, toplaşma azadlığı hüququna qoyulmuş məhdudiyyətləri aradan qaldırmaq;

**Birləşmə azadlığı:**

- Azərbaycanın İnsan Hüquqları Evinin yenidən açılmasına icazə vermək və insan hüquqları ilə bağlı məhkəmə işlərini apardıqlarına görə vəkillik hüququndan məhrum edilmiş və ya

lisenziyaları əllərindən alınmış vəkillərin hüquqlarını bərpa etmək də daxil olmaqla, QHT-lər, insan hüquqları müdafiəçiləri və vəkillərə təzyiqləri və onların işlərinə müdaxilələri dayandırmaq;

**Məlumat azadlığı:**

Qanunvericilik çərçivəsində Azərbaycan Respublikasının Dövlət Neft Şirkətindən məlumat sahibi kimi öz maliyyə məlumatlarını ictimaiyyətə bildirməsini tələb etmək də daxil olmaqla "Məlumat əldə etmək hüququ haqqında" Qanunu daha səmərəli şəkildə həyata keçirmək;

**İnternetdə ifadə azadlığı:**

- Etiraz aksiyalarının təşkilində iştirak edən sosial media istifadəçilərini hədəf alan tədbirlərin dayandırılması da daxil olmaqla, internetdə ifadə azadlığına hörmət və onu müdafiə etmək;
- İnternet infrastrukturuna investisiya qoymaq və bütövlükdə ölkə ərazisində universal, münasib tarifli və yüksək sürətli internetə çıxışın təmin edilməsi üçün çalışmaq;

**Mediaya dövlət nəzarəti:**

- BBC, Amerikanın Səsi və Azad Avropa/Azadlıq Radioları da daxil olmaqla xarici yayım qurumlarının milli tezliklərdə yayınlanmasının qarşısını alan qadağanı aradan qaldırmaq;
- Beynəlxalq standartlara uyğun və lisenziyaların verilməsi üçün şəffaf prosedurlara malik, müstəqil yayım tənzimləyici orqan yaratmaq;
- İctimaiyyətin marağında olan və hökümətin maraqlarını təmsil etməyən, əsas diqqəti Bakıdan kənar rayonlara yönələn ictimai yayım xidmətinin inkişafını təşviq etmək;
- Dövlət reklamının ədalətli, obyektiv və şəffaf bölgüsü üçün şərait yaratmaq; və
- Redaksiya müstəqilliyi və redaksiya nizamnamələrinə dair təlimatlar, özünütənzimləyən instrumentlər, plüralist və struktur media sahibkarlığı və iş şərtləri də daxil olmaqla uzunmüddətli media islahatı strategiyası hazırlamaq üçün beynəlxalq standartlara uyğun müstəqil işçi qrupu yaratmaq.

Bununla yanaşı, ABTQ beynəlxalq ictimaiyyəti, xüsusi ilə də Azərbaycanla mühüm iqtisadi, sosial və siyasi əlaqələri olan dövlətləri regional və beynəlxalq səviyyədə, ikitərəfli kontekstdə hər münasib fürsətdə Azərbaycanı ifadə azadlığı ilə bağlı götürdüyü öhdəliklərə görə cavabdeh tutmağa çağırır. Müvafiq olaraq 2012-ci lin may və noyabr aylarında Bakıda keçiriləcək Avroviziya Mahnı Müsabiqəsi və İnternet İdarəçiliyi Forumu bu cür əməkdaşlıq üçün əla fürsət olacaq.

ABTQ həmçinin bu sahədə qeyri-dövlət tərəflərinin, xüsusilə də Azərbaycanda əhəmiyyətli biznes maraqları olan fərdi şəxs və şirkətlərin, ölkədə geniş pərəstişkar kütlələrinə malik müğənni, aktyor və digər məşhur şəxslərin oynaya biləcəyi rolun əhəmiyyətini qeyd edir.

# 1. Giriş

2010-cu ilin sentyabr ayında Azərbaycanda ifadə azadlığının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar koalisiyası - Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupu (ABTQ) ölkəyə ifadə azadlığına dair birgə missiya təşkil etmişdi. Missiyanın nəticələri və tövsiyələri İfadə *Azadlığına Hücum: Azərbaycanın Pisləşən Media Mühiti*[1]. adlı hesabatda dərc olundu. Missiyadan sonra Azərbaycanda ifadə azadlığı ilə bağlı vəziyyət daha da pisləşmişdir. Bu hesabatda 2010-cu ilin sentyabrından 2012-ci ilin mart ayınadək ABTQ üçün narahatlıq doğuran əsas sahələrlə bağlı yeniliklər verilib.

Azərbaycanda ifadə azadlığı ilə bağlı hazırkı vəziyyət ciddi narahatlığa əsas verir. Jurnalistlər, bloqçular, siyasi və vətəndaş cəmiyyətinin fəalları, insan hüquqları müdafiəçiləri hakimiyyət tərəfindən getdikcə daha çox təzyiq, hücum və müdaxiləyə məruz qalır. Jurnalistlərə qarşı zorakı hücumlar davam etmiş, 2011-ci ilin noyabrında yazıçı-jurnalist Rafiq Tağının öldürülməsi isə bu hücumların davamlı olaraq cəzasız qalması faktını bir daha diqqət mərkəzinə çıxarmışdır. Bu cür halları açıq-aşkar lazımı şəkildə araşdıra və təqsirkarları təqib edə bilməməsinə baxmayaraq hakimiyyət müxtəlif hüquqi bəhanələrlə tənqidçi jurnalistləri, bloqçu və fəalları  həbs etməkdə davam edir. İfadə azadlığı hüququnu icra etdikləri üçün həbs olunmuşların sıraları gündən-günə artdığı bir müddətdə səslənən tənqidləri susdurmaq üçün zorakılığa əl atanlar hələ də cəzasız qalmaqdadır.

Bu qanun pozuntularının artması nəticəsində ötən il yüzlərlə Azərbaycanlı hökumətin siyasi və sosial siyasətlərinə qarşı etiraz səsini yüksəltmək üçün küçələrə çıxmışdır. Polis bu nümayişləri dağıtmaq üçün hədsiz güc tətbiq etmiş, yüzlərlə etirazçı həbs olunmuşdur. Onların çoxuna adekvat olmayan inzibati cəzalar kəsilmişdir. Aksiyaların təşkilində iştirak etmiş şəxslərə daha sərt dərslər verilmişdir. Onlar etiraz nümayişləri və ya digər - hərbi xidmətdən yayınma və ya seçkilərə müdaxilə etmə kimi əlaqəsiz, lakin siyasi motivli ittihamlarla təqsirli bilinərək həbs edilmişdir. Bu şəxslərin müdafiəsində iştirak edən QHT-lər, insan hüquqları müdafiəçiləri və vəkillər özləri də həmin vaxtdan hədəfə çevrilmişlər. Hakimiyyəti törədilən əməllərə görə cavabdeh hesab etdikləri üçün onların ofisləri bağlanmış, işlərini itirmiş və ya digər təzyiq formaları ilə üzləşmişlər.

Bu il Azərbaycanda keçirilməsi nəzərdə tutulan iki mühüm beynəlxalq tədbir (2012-ci ilin 22, 24 və 26 may tarixlərində baş tutacaq Avroviziya Mahnı Müsabiqəsi və 2012-ci ilin 6-9 noyabr tarixində Bakıda keçiriləcək İnternet İdarəçiliyi Forumu) səbəbindən bu narahatlıqlar hazırda xüsusi beynəlxalq əhəmiyyət daşıyır. Bu tədbirləri, xüsusilə də Avroviziya müsabiqəsini nəzərə alaraq, Azərbaycan hökuməti beynəlxalq arenada Azərbaycanın müsbət imicini təbliğ etmək üçün böyük səylə çalışır. Lakin ölkə daxilində hökumət, ifadə azadlığı və digər əsas azadlıqları məhdudlaşdırmağa davam edir. Bu hesabatın əsas məqsədi bu tədbirlər öncəsi və daha uzun müddət ərzində müsbət dəyişikliklərin sırasını genişləndirmək məqsədilə bu narahatlıq doğuran məsələləri Azərbaycan hökuməti ilə beynəlxalq əməkdaşlıq üçün münasib bir zamanda işıq üzünə çıxarmaqdır.

---

[1] http://www.article19.org/data/files/pdfs/publications/free-expression-under-attack.pdf

## Hesabatın strukturu

Qısa Xülasə və ABTQ-nın Azərbaycanın ifadə azadlığı mühitini yaxşılaşdırmaq üçün atmalı olduğu addımlara dair tövsiyələri giriş hissəsindən əvvəl gəlir. Girişin ardından isə BMT-nin fikir və ifadə azadlığının təşviqi və müdafiəsi üzrə xüsusi məruzəçisi Frank La Rue cənablarının ön sözü verilmişdir. 3-cü Fəsildə Sərhədsiz Reportyorlar Təşkilatı jurnalistlərə qarşı törədilən zorakı hücumlara görə cəzasız qalma hallarının artmasını təhlil edir. 4-cü Fəsildə ARTİCLE 19 ifadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə ilə bağlı yenilikləri təqdim edir. 5-ci Fəsildə ARTİCLE 19-un dinc toplaşma azadlığına qoyulan məhdudiyyətlər və onların ifadə azadlığına təsirinə dair təhlilləri əks olunmuşdur. 6-cı Fəsildə İnsan Hüquqları Evi Fondu, hökumətin azad toplaşma hüququna qarşı tətbiq etdiyi gündən-günə artan məhdudiyyətlərin bir hissəsi kimi QHT-lər, insan hüquqları müdafiəçiləri və vəkillərə qarşı göstərilən təzyiqlərin təfsilatı verilir. 7-ci Fəsil ARTİCLE 19 məlumat azadlığına qoyulan məhdudiyyətlərdən bəhs edir. 8-ci Fəsildə İndex on Censorship internetdə ifadə azadlığı ilə bağlı vəziyyəti araşdırır. 9-cu fəsildə Ümumdünya Qəzet və Yeni Naşirlər Assosiasiyasının (WAN-IFRA) dövlətin media sahəsində dominantlığı haqqında təhlilləri öz əksini tapmışdır. 10-cu Fəsildə Beynəlxalq Jurnalistlər Federasiyasının mediada peşəkarlıq haqqında məlumatları yer almışdır. 11-ci Fəsildə İndex on Censorship Azərbaycanın ölkə xaricində müsbət imic formalaşdırmaq cəhdlərini təhlil edir. Sonuncu 12-ci Fəsildə isə ABTQ-nin yekun müşahidələri əks olunmuşdur.

# 2. Frank La Rue tərəfindən ön söz[1]

Fikir və ifadə azadlığı bir çox digər hüquqların icra edilməsi üçün zəruri olan və demokratik cəmiyyətin əsas komponenti olan fundamental insan hüququdur. BMT-yə üzvlüyü və digər beynəlxalq insan hüquqları instrumentləri ilə yanaşı Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı ratifikasiya etməsilə Azərbaycan bu hüquqa hörmət və onu müdafiə etmək öhdəliyi götürüb.

Sələfimin Azərbaycana səfərindən sonra təxminən beş il ərzində ölkədə ifadə azadlığı ilə bağlı vəziyyət həm nüanslı, həm də dramatik yöndə xeyli dəyişmişdir. Hal-hazırda 2007-ci ildə olduğu qədər çox məhbus jurnalist olmasa da, ümumilikdə ifadə azadlığını icra etdikləri üçün həbs olunanların sayı daha çoxdur. Cinayət defamasiyası müddəalarından artıq 2007-ci ildə olduğu qədər tez-tez istifadə olunmasa da, digər qanunların sui-istifadəsi halları geniş vüsət almışdır.

Təəssüflə qeyd etmək istərdim ki, sələfimin Azərbaycana səfərindən sonra hakimiyyət strukturları üçün işləyib hazırladığı, xüsusilə də cəzasız qalma ilə əlaqədar olan tövsiyələr diqqətə alınmamışdır. Hökumət orqanları artıq jurnalistlərə qarşı davamlı törədilən zorakılıq əməllərinin və bu əməllərə görə cəzasız qalma hallarının daha davam etməməsi üçün tədbirlər görməlidir.

BMT Təhlükəsizlik Şurasına müvəqqəti üzv seçilmiş Azərbaycanın ifadə azadlığı ilə bağlı öhdəliklərini yerinə yetirməklə digər dövlətlərə örnək olmaq üçün mükəmməl imkanları var. Azərbaycanda, həmçinin 2013-cü ildə BMT İnsan Hüquqları Şurası tərəfindən Universal Dövri İcmalın ikinci mərhələsi keçiriləcək və bununla Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupu tərəfindən bu hesabatda qaldırılmış məsələləri həll etmək və ölkədə ifadə azadlığı mühitini yaxşılaşdırmaq üçün əlverişli imkan yaranacaq.

Bununla bərabər, builki İnternet İdarəçiliyi Forumuna evsahibliyi edəcək ölkə kimi Azərbaycanın, internetdə ifadə azadlığını genişləndirmək üçün mükəmməl imkanı var. İnternet bütün dünyada insanların gündəlik həyatının ayrılmaz hissəsi olan kommunikasiya vasitəsinə çevrilmişdir. Azərbaycan və bütün digər dövlətlər internetdə məlumatın azad şəkildə təqdim edilməsini və internetin hər kəs üçün çatımlı olmasını təmin etməlidir.

[1] Frank La Rue fikir və ifadə azadlığının təşviqi və müdafiəsi üzrə BMT-nin xüsusi məruzəçisidir. Onun sələfi AmbeyiLigabo 2007-ci ilin aprel ayında Azərbaycana səfər etmiş və bu səfərdən sonra hesabat hazırlamışdır: (bu səhifədən əldə edilə bilər) http://daccess-dds-ny.un.org/doc/UNDOC/GEN/G08/107/08/PDF/G0810708.pdf?OpenElement

# 3. Jurnalistlərə qarşı zorakılıq əməllərinə görə cəzasız qalma

Müəllif: Johann Bihr, Sərhədsiz Reportyorlar Təşkilatının Mərkəzi Asiya və Avropa Departamentinin rəhbəri

ABTQ-nin 2010-cu ilin sentyabrında Azərbaycana birgə missiyasından sonra jurnalistlərə qarşı fiziki hücumlarda, onların qətlə yetirilməsində təqsirlilərin cəzasız qalma halları artmışdır. Elmar Hüseynov və Rafiq Tağının üstü açılmamış qətlləri jurnalistlərin üzərinə kölgə salır, onların qorxularını artırır. "Bakı baharı" ilə bağlı təzyiqlər nəticəsində 2011-ci ildə mediaya qarşı yeni zorakılıqlar silsiləsi başladılmışdır. Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu (RATİ) sadəcə 2011-ci ildə jurnalistlərə qarşı 11 zorakı hücum halı, "iş yerində" hədə-qorxu gəlmə kontekstində isə digər 16 zorakılıq halı qeydə almışdır[1].

**Elmar Hüseynova qarşı ədalətsizlik**

2005-ci ildə müxalifyönlü həftəlik "Monitor" jurnalının redaktorunun qətlindən yeddi il sonra istintaq tam şəkildə iflic vəziyyətindədir. Hakimiyyət iki əsas şübhəli şəxs olan Teymuraz Əliyev və Tahir Qurbanovu ekstradisiya etməkdən imtina edən Gürcüstanı lazımı şəkildə əməkdaşlıq etməməkdə günahlandırır.

Qətlin arxasında dayananları müəyyənləşdirmək üçün heç bir ciddi tədbir görülməmişdir. Əksər jurnalistlər, siyasi müxaliflər və insan hüquqları müdafiəçiləri bu səs-küylü hadisədə davam edən cəzasızlığı özləri üçün daimi təhlükə hesab edir. Hüseynovun qətlindən sonra faktiki olaraq jurnalistlərə qarşı törədilmiş heç bir zorakılıq halı üzrə ciddi araşdırma və ya təqib aparılmamışdır. Nəticədə jurnalistlərin hakimiyyət strukturlarını tənqid etməyə qərar verdikləri anda məmurlar tərəfindən təşkil və ya sifariş edilən hücumların qurbanlarına çevriləcəklərini bildiyi qorxu mühiti yaranır.

**Növbəti qətl və yarımçıq qalmış növbəti istintaq**

Tanınmış yazıçı-jurnalist Rafiq Tağı 2011-ci ilin 19 noyabr gecəsi evinə qayıdarkən arxadan bir neçə bıçaq zərbəsi almışdır. Təcili olaraq xəstəxanaya çatdırılaraq uğurlu şəkildə əməliyyat olunsa da, aradan dörd gün keçmiş yenə qeyri-müəyyən şəraitdə ölmüşdür.

Bu hadisənin bir çox narahatlıq doğuran aspektləri ictimai fikri və beynəlxalq ictimaiyyəti şok etmişdir. Onu əməliyyat etmiş həkimlərin yekdilliklə artıq sağlamlığı üçün heç bir təhlükənin qalmadığını və özünün də yaxşı olduğunu bildirməsindən sonra Rafiq Tağının qəfildən ölməsi nə dərəcədə mümkündür? Keçirdiyi ağır əməliyyatdan 24 saat sonra o, nə üçün reanimasiya bölməsindən adi palataya köçürülmüşdür? Cinayətə cəhd hədəfi olmuş bir şəxs üçün nəyə görə polis mühafizəsi təyin edilməmişdir?

İslamın tənqidçisi kimi tanınmış Tağı, bu səbəbdən İran hökumətinin ədavətini qazanmış və 2006-cı ilin noyabrında dərc etdirdiyi və Avropa humanizmini müdafiə etdiyi "Avropa və biz" başlıqlı məqaləsinə görə öz ölkəsində üç il azadlıqdan məhrum edilmişdir. Bir il davam edən məhkumluq həyatının ardından 2007-ci ilin dekabr ayında əfv edilmişdir. Həmin məqalə eyni zamanda İran ruhanisinin fitvası ilə onu ölüm hökmünün hədəfinə çevirmişdir.

---

[1] IRFS interview with ARTICLE 19, 17 March 2012

2011-ci il noyabrın 10-da o, İran hökuməti haqqında olduqca tənqidi fikirlərin ifadə olunduğu, hücumların, xüsusilə də hazırda Azərbaycanla İran arasında gedən “soyuq müharibə”nin arxasında iranlıların durduğu şübhələrini gücləndirdiyi növbəti məqaləsini yazmışdır. Lakin ailəsi və bəzi jurnalistlər aparılan istintaqın başdansovduluğu və qeyri-adekvatlığından şikayət etmiş, onun ölümündə Azərbaycan hakimiyyətinin təqsirli olmasından əmin olduqlarını bildirmişdir.

Hökumət Rafiq Tağıya qarşı törədilmiş hücuma görə cavabdeh şəxslərin tapılması üçün bütün mümkün tədbirlərin görüldüyünü və istintaqın Baş prokuror Zakir Qaralovun birbaşa nəzarəti altında aparıldığını bildirmişdir. Buna baxmayaraq, vətəndaş cəmiyyəti nümayəndələrinin təsis etdiyi “Preventiv Analitik Qrupu” öz araşdırmasını aparmış və rəsmi istintaqın bir neçə ciddi çatışmazlıqlarını müəyyənləşdirən hesabat hazırlamışdır. Bu günədək heç bir şübhəli şəxs həbs olunmamışdır.

**“Bakı baharı” ilə bağlı təzyiqlər mediaya qarşı yeni zorakılıq silsiləsinə yol açır**

Ciddi hadisələrlə bağlı davam edən cəzasızlıq Azərbaycanda jurnalistlərə qarşı hədə-qorxu hallarını gücləndirmişdir. Lakin jurnalistlərin getdikcə daha çox məruz qaldığı gündəlik zorakılıq hallarına görə ümumi cəzasızlıq faktı ilə vəziyyət daha qorxulu xarakter almışdır. Polis əməkdaşı jurnalisti döydüyünə görə cəzalandırılmadıqda, ölüm təhlükələri heç araşdırılmadıqda, zorakılığın daha ağır formalarının baş vermə ehtimalı daha real görünür.

Zorakılıq qurbanına çevrilən bütün jurnalistlərə qarşı ədalətli davranmamaqla Azərbaycan hakimiyyəti Avropa İnsan Hüquqları Konvensiyasının 2 və 3-cü Maddələrini və Avropa İnsan Hüquqları Məhkəməsinin yaratdığı yurisprudensiyanı sistemli şəkildə pozmuşdur.

Təhlükəsizlik qüvvələri 2011-ci ilin mart və aprel aylarında baş qaldırmış etiraz dalğalarını yatırmaq üçün ciddi zorakılıq tətbiq etmiş, çox sayda insan döyülmüşdür. Jurnalistlər aprelin 2-də Bakının Fəvvarələr Meydanında baş vermiş demokratiya tərəfdarları nümayişlərini işıqlandırmağa çalışarkən döyülmüşdür[2].

**Müxalif jurnalistlərin oğurlanması**

Müxalifyönlü “Azadlıq” qəzetinin müxbiri Seymur Həziyev 2011-ci ilin 26 mart gecəsi Bakı yaxınlığındakı Ceyranbatan qəsəbəsində yerləşən evinə qayıdarkən altı nəfər maskalı şəxsin hücumuna məruz qalmışdır. Başına torba geyindirilərək mikroavtobusda naməlum yerə aparılmış və iki saat ərzində ona işgəncə verilmişdir. Üzərində olan iki telefon əlindən alınmış, noutbukunun içindəkilər yoxlanmışdır. Hücum edənlərdən biri ona “digərləri kimi alicənab və sakit” davranmağı bildirmişdir. Sonda isə o, oğurlandığı ərazidən bir neçə kilometr uzaqlıqda əlləri bağlı şəkildə azad buraxılmışdır.

“Azadlıq” qəzetinin digər bir müxbiri Ramin Deko bir həftə sonra buna bənzər halla üzləşmişdir. Mülki geyimdə olan üç nəfər 3 aprel səhər saatlarında onun yaşadığı, Bakı şəhərindəki Rəsulzadə qəsəbəsində qabağını kəsərək maşınlarına minməyə məcbur etmişlər. Daha sonra

---

[2] http://en.rsf.org/azerbaijan-journalists-among-victims-of-05-04-2011,39953.html

onu Bakının 25 kilometrliyində yerləşən Maştağa kəndinə aparmış və səkkiz saat ərzində dayanmadan psixoloji təzyiqə məruz qoymuşlar. Ondan dəfələrlə nə üçün sosial internet şəbəkələrində fəal olmasını və prezident İlham Əliyevi tənqid edən məqalələr yazmasını soruşmuşlar. Ona, bu əməllərindən əl çəkməzsə, "başının ciddi şəkildə ağrıyacağını" söyləmişlər. Onu saat 16:00 radələrində Bakıda azad etməzdən öncə başına gələnlər haqqında susmasını bildirmişlər. Buna baxmayaraq, Deko dərhal oğurlanması haqqında mediaya xəbər vermiş və növbəti gün işdən çıxdıqda onu oğurlamış şəxslərdən ikisi "qisas məqsədilə" çox ağır şəkildə döymüşlər. Hər iki halda təqsirkarlar müəyyənləşdirilməmişdir[3].

## Xarici jurnalistlərə qarşı zorakılıq

Bu cür hallar çox baş verməsə belə, xarici jurnalistlər də zorakılıq əməllərindən sığortalanmamışdır. 2011-ci ilin iyununda Amerikalı jurnalist Amanda Erickson və Britaniyanın media hüquqları üzrə fəalı Celia Davies dörd nəfər naməlum şəxsin onlara hücumu zamanı ciddi şəkildə zədə almışlar[4]. Erickson və Davies Azərbaycanda yerli jurnalistlər və vətəndaş cəmiyyəti qrupları ilə işləyirdi. Hücum zamanı Ericksonun yenicə New York Times qəzetində əvvəllər məhkum olunmuş bloqçu Emin Milli ilə bağlı[5], Kolumbiya Hüquq İcmalında (Columbia Law Review) isə tanınmış tənqidçi jurnalist Xədicə İsmayılla[6]. bağlı yazıları dərc olunmuşdur. Lakin Azərbaycanlı jurnalistlərdən fərqli olaraq, Erickson və Daviesə hücum edənlər tezliklə tapılaraq həbs olunmuşdur[7].

## Bakıdan kənarda

Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATI) operatoru Rəşad Əliyev 2012-ci ilin 1 mart tarixində ölkənin şimalında yerləşən Quba şəhərində polislə təhlükəsizlik qüvvələri arasında baş verən toqquşmaları lentə almaq istəyərkən polis əməkdaşı tərəfindən başından vurulmuş və xəstəxanaya yerləşdirilmişdir.

Ermənistan ərazisinə düşən bir zolaqla Azərbaycan torpaqlarından ayrılan Naxçıvan Muxtar Respublikasında da ümumilikdə cəzasızlıq hökm sürməkdədir. Naxçıvanda demək olar ki, plüralizm tamamilə mövcud deyil və jurnalistlər işlərini görmək üçün mübarizə aparır. Onlar zorakılıq halları (çox vaxt yerli təhlükəsizlik qüvvələri tərəfindən) ilə bağlı şikayət etmək istədikdə məhkəmə orqanları, adətən, bu cür halların baş verdiyini sadəcə olaraq inkar edir.

Naxçıvanda son zamanlar baş vermiş hadisələr arasında aşağıdakıları qeyd etməyə dəyər:

- Jurnalistlər Elman Abbasov (RATİ) və İlqar Nəsibov (Turan) 2011-ci il 15 iyul tarixində

---

[3] http://www.article19.org/resources.php/resource/1745/en/azerbaijan:-international-organisations-condemn-abduction-and-beating-of-journalist-seymur-khaziyev

[4] http://www.irfs.az/content/view/6831/28/lang,en/

[5] http://www.nytimes.com/2011/06/25/world/europe/25azerbaijan.html?_r=1&ref=azerbaijan

[6] http://www.cjr.org/feature/open_mic.php?page=all

[7] http://www.rferl.org/content/azerbaijanis_arrested_assault_foreign_journalist_activist/24248405.html

həmkarları jurnalist Həkimeldostu Mehdiyevin (RATİ) Cəlilkənddə yerləşən evinə təşkil edilən polis reydini işıqlandırmağa çalışarkən polis əməkdaşı və onu müşayiət edən mülki geyimli şəxs tərəfindən zorakı hücuma məruz qalmışdır.

- İlqar Nəsibov və Məlahət Nəsibovaya (Turan) 2011-ci il 27 iyul tarixində Babək rayonunda polis məntəqəsinin ətrafında yerli vəzifəli şəxslər tərəfindən hücum edilmişdir. Naxçıvanda öncül insan hüquqları fəalı olan Nəsibova da 2011-ci il avqust ayının sonlarında təcridxanada ölmüş yerli sakin Turac Zeynalovun ölümünü araşdırdıqdan sonra Milli Təhlükəsizlik Nazirliyi [8], tərəfindən dindirilməyə çağırılmış və ölümlə hədələmə halları daxil olmaqla bütün növ təzyiqlərə məruz qalmışdır

- Yafəz Həsənov (Azad Avropa/Azadlıq Radiosu) 2011-ci il 31 avqust günü Turac Zeynalovun ölümünü araşdırmaq məqsədilə Naxçıvana getdiyi zaman üç nəfər naməlum şəxs tərəfindən oğurlanmışdır. Onu oğurlayanlar başına gələnləri unutmasını söyləmiş, onu İran sərhədinə aparmış və İran vasitəsilə Bakıya qayıtmasını, gələn ay da Naxçıvana ayaq basarsa, "bunun ona baha başa gələcəyini" bildirmişlər. Onlar mülki geyimdə olsalar da, adətən, hökumətin təhlükəsizlik əməkdaşlarının istifadə etdiyi maşın sürürlərmiş. Onu İran ərazisindən qayıtmağa vadar etmək təhlükə ilə üzbəüz qoyurdu, belə ki RFE/RL İran hökuməti tərəfindən "qeyri-qanuni təşkilat" olaraq bəyan edilmişdir.

---

[8] http://en.rsf.org/azerbaidjan-stepping-up-harassment-of-media-06-09-2011,40927.html

# 4. İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə

Müəllif: Rebecca Vincent, ARTİCLE 19-un IPGA layihə koordinatoru

### Defamasiya

Defamasiya üzrə hüquqi müddəalar Azərbaycanda ifadə azadlığı üçün maneə təşkil etməkdə davam edir. Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının səmərəliliyini artırmaq üçün Milli Fəaliyyət Proqramında 2012-ci ildə defamasiyanı dekriminallaşdıracaq yeni defamasiya haqqında qanunun qəbul edilməsi ilə bağlı planlar olsa da, hazırda defamasiya Azərbaycanda cinayət əməli olaraq qalmaqdadır[1].

Defamasiyaya görə cinayət məsuliyyəti ilə bağlı müddəalar artıq əvvəlki illərdəki qədər tez-tez həbs cəzası ilə nəticələnməsə də, hələ də tətbiq olunmaqdadır. Bakıda yerləşən Media Hüquqları İnstitutundan (MHİ) verilən məlumata əsasən, 2011-ci ildə defamasiya halları ilə əlaqədar səkkiz jurnalist cinayət təqibinə məruz qalmışdır[2]. Bu müddəaların hələ də mövcud olması, xüsusilə də ölkədə özünüsenzuranın geniş yayılmasına təkan verməkdə ifadə azadlığına ciddi şəkildə mənfi təsir göstərməkdə davam edir. AŞ-nin İnsan Hüquqları Komissarı Thomas Hammarberg və ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi Dunja Mijatović də daxil olmaqla beynəlxalq ekspertlər uzun illərdir Azərbaycanda defamasiyanın dekriminallaşdırılmasını tələb edirlər[3].

Mülki defamasiya ilə bağlı müddəalardan tez-tez, çox vaxt isə müstəqil və müxalifyönlü media qurumlarının fəaliyyətini iflic etmək üçün sui-istifadə olunur. MHİ-dən verilən məlumata görə, 2011-ci ildə mülki defamasiya müddəaları ilə bağlı 70-dən çox məhkəmə qərarı və ümumi dəyəri 46,200 ABŞ dollarından çox olan (əvvəli illərdən daha çox) təzminat ödəmə haqqında məhkəmə qərarlarıyla nəticələnmiş ümumilikdə 32 hadisə qeydə alınmışdır. MHİ-dən bildirilmişdir ki, “Yeni Müsavat” və “Xural” qəzetləri bu hadisələrin əsas hədəfləri olmuşdur. Şikayətçilər sırasında Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, prezidentin əmisi, millət vəkili Cəlal Əliyev və Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun İcraçı direktoru Vüqar Səfərli də  olmuşdur[4].

### Tənqidi susdurmaq üçün digər qanunlardan siyasi məqsədlərdə istifadə

İfadə azadlığı üçün daha böyük maneə digər qanunların siyasi məqsədlərlə sui-istifadəsi nəticəsində yaranır. AŞ-nin İnsan Hüquqları Komissarı Thomas Hammarbergin 2011-ci ilin sentyabrında Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı müşahidələrində qeyd etdiyi kimi, 2010-cu ilin martında ölkəyə səfərindən sonra Azərbaycanın hakim strukturları üçün tövsiyələrindən biri “jurnalistlərin və tənqidi fikir ifadə edən digər şəxslərin ədalətsiz və ya selektiv cinayət təqibi hallarına son vermək olmuşdur. Lakin bu müraciət, açıq-aşkar, vəziyyəti yaxşılaşdırmamışdır. Hammarberg hökumətə “ifadə etdikləri fikir və görüşlərə görə həbs olunmuş bütün məhbusları dərhal azad etmək” çağırışını təkrar etmişdir[5].

---

[1] http://www.azertag.com/node/900204

[2] http://www.mediarights.az/index.php?lngs=aze&id=358

[3] https://wcd.coe.int/ViewDoc.jsp?id=1839497 and http://www.osce.org/baku/77483

[4] http://www.mediarights.az/index.php?lngs=aze&id=358

[5] https://wcd.coe.int/ViewDoc.jsp?id=1839497

Həqiqətən də, ötən bir neçə il ərzində tənqid səslərini boğmaq üçün ifadə azadlığı ilə heç bir aydın əlaqəsi olmayan ittihamlardan istifadə etmək ənənəsi meydana gəlmişdir. Bu ittihamlara xuliqanlıq, narkotik vasitələri saxlama, hərbi xidmətdən yayınma, terrorçuluğa dəstək, nifrət oyatma, rüşvət alma və vergilərdən yayınma daxildir. Nəticədə, hal-hazırda Azərbaycanda ifadə azadlığı hüququnu icra etdiyi üçün 20-dən çox şəxs saxlanılır və ya məhkumluq həyatı yaşayır ki, bunların 11-i 2011-ci ilin mart və aprel aylarında Bakıda baş qaldırmış demokratiya tərəfdarlarının silsilə nümayişlərdə iştirak etdiklərinə görə saxlandıqdan sonra hələ də həbsdə qalan siyasi fəallardır[6].

islamazeri.com internet saytının baş redaktoru Ramin Bayramov qeyri-qanuni olaraq silah və narkotik maddə saxladığı ittihamları ilə 2011-ci ilin 11 avqustunda həbs, 2012-ci ilin martında məhkum olunduqdan sonra bir il yarımlıq həbs cəzasını çəkməkdədir. Bayramovun vəkili narkotik vasitə və silahların tələ olduğunu iddia edir[7]. Milli Təhlükəsizlik Nazirliyi və Baş Prokurorluqdan verilən məlumata görə isə Bayramov və onunla eyni gündə həbs olunmuş iki islam fəalı Azərbaycana qarşı yönəlmiş düşmən fəaliyyətlərində iştirak etməkdə şübhəli bilinirlər[8].

“Xural” qəzetinin Lənkəran üzrə regional müxbiri Aydın Canıyev xuliqanlıq ittihamı ilə 2011-ci ilin sentyabrında həbs olunaraq 2011-ci ilin noyabrında məhkum olunduqdan sonra üç illik həbs cəzası çəkməkdədir. İttihamlar yerli dini icmanın üzvlərinin Canıyevin məscidin pəncərələrini sındıraraq məscid əməkdaşlarını təhqir etdiyini iddia etdiyi şikayət ərizəsinə əsaslanır[9].

İnsan hüquqları müdafiəçisi Vidadi İsgəndərov 2010-cu ilin noyabrında keçirilmiş parlament seçkilərinə müdaxilə etmək ittihamı ilə 2011-ci ilin aprel ayında həbs olunaraq həmin ilin avqust ayında mühakimə olunduqdan sonra üç illik həbs cəzasını çəkməkdədir. İsgəndərov həbs olunduqdan sonra, qeyd edilən cinayətlərin baş verməsindən altı ay sonra 2011-ci ilin aprelində baş vermiş demokratiya tərəfdarlarının nümayişlərində iştirak etdiyinə görə ittiham edilmişdir. Bundan əvvəl o, 2010-cu ilin noyabrında keçirilmiş parlament seçkilərini saxta adlandıraraq tənqid etmişdir[10].

Bloqçu və vətəndaş cəmiyyəti fəalı Bəxtiyar Hacıyev hərbi xidmətdən yayınma ittihamı ilə 2011-ci ilin martından həbs olunaraq həmin ilin may ayında mühakimə edildikdən sonra iki illik həbs cəzası çəkməkdədir. 2010-cu ilin noyabr parlament seçkilərində müstəqil şəkildə namizədliyini irəli sürmüş Hacıyev Facebook sosial şəbəkəsində demokratiya tərəfdarlarının etiraz aksiyasının təşkilatçılarından biri kimi göstərildikdən sonra həbs olunmuşdur. AŞ-nin İnsan Hüquqları Komissarı Thomas Hammarbergin qeyd etdiyi kimi, “Həbs olunmasının və ona qarşı ittiham irəli sürülməsinin vaxtı Hökumətə qarşı yönəlmiş fəaliyyətlərini dayandırmaq

---

[6] Bax: 6-cı Fəsil, “İfadə və dinc toplaşma azadlıqları: qarşılıqlı güclənən, qarşılıqlı məhdud”

[7] http://www.irfs.az/content/view/7195/28/lang,eng/

[8] http://www.irfs.az/content/view/7201/28/lang,eng/

[9] http://www.irfs.az/content/view/7756/lang,az/

[10] http://www.irfs.az/content/view/7279/lang,eng/

cəhdinə işarə edir[11].”

**Siyasi motivli həbslər**

Beş jurnalist, bir media işçisi və bir bloqçu hal-hazırda müvəqqəti saxlama məntəqəsində ifadə azadlığı hüquqlarını icra etməklə bağlı ittihamlarla mühakimə olunmağı gözləyir. Bakıda yerləşən Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) məlumatına görə, 2012-ci ilin 13 mart tarixində dörd jurnalist həbs olunmuşdur: Vuqar Qonağov, Zaur Quliyev və Zaur Mustafayev, müvafiq olaraq Xəyal TV-nin icraçı direktoru, baş redaktoru və reklam işləri üzrə redaktoru; və Poliqon İnformasiya Agentliyinin müxbiri Cəmil Məmmədli. Həbslərin 2012-ci il 1 mart tarixində Quba şəhərində baş vermiş etiraz aksiyası ilə əlaqədardır[12].

İranın “Sahar” televiziyasının azərbaycanlı müxbiri Anar Bayramlı üzərində heroin aşkarladığını iddia edilərək polis tərəfindən 2012-ci il fevral ayında evində həbs edildikdən sonra narkotik vasitə saxlamaq ittihamı ilə təqsirli bilinərək hələ də həbsdə saxlanmaqdadır. RATİ-yə görə, Bayramlı “Sahar” televiziyasının Azərbaycan dilində yayımladığı xəbərlər buraxılışında Azərbaycan hakimiyyətini tənqid etməsi səbəbilə hədəfə çevrilmişdir[13]. “Sahar” televiziyasının sürücüsü Ramil Dadaşov da eyni gün bu hesabatın dərc edilməsi müddətində qeyri-müəyyən olaraq qalmış ittihamlarla həbs olunmuşdur[14].

Bloqçu və insan hüquqları müdafiəçisi Teleh Xasməmmədov 2011-ci ilin noyabr ayında həbs edildikdən sonra xuliqanlıq və dövlət nümayəndəsinə fiziki hücum etmə ittihamları ilə həbsdə saxlanılır. “Qanun və Hüquqlar 2010” insan hüquqları qrupunun sədri cənab Xasməmmədovun fikrincə, o, bloqçuluq və insan hüquqları ilə bağlı fəaliyyətləri səbəbilə hədəfə alınmışdır[15].

“Xural” qəzetinin baş redaktoru Əvəz Zeynallı 2011-ci il oktyabr ayında həbs olunduqdan sonra rüşvət alma ittihamı ilə həbsdə saxlanılır. İttihamlar millət vəkili Gülər Əhmədovanın şikayətinə əsaslanır. Zeynallı Əhmədovanın iddialarını inkar edərək ittihamların siyasi motivli olduğunu təkid edir[16]. Zeynallının həbsindən öncəki aylarda “Xural” qəzeti, defamasiya ilə bağlı çoxsaylı məhkəmə prosesləri və qəzetin öhdəliklərinin əlindən alınması daxil olmaqla artan təzyiqlə üzləşmişdir. Sərhədsiz Reportyorlar Təşkilatı Zeynallının prezident Əliyevə yönələn kəskin tənqidləri nəticəsində hədəf alındığına inanır[17].

Son illərdə ifadə azadlığını icra etdiyi üçün həbs edilmiş şəxslər, 2010-cu ilin sentyabr ayında ABTQ-nin Azərbaycana birgə missiyası zamanı hələ həbsdə olmuş redaktor Eynulla Fətullayev və bloqçu və gənc fəallar Adnan Hacızadə və Emin Millinin timsalında çox vaxt cəza müddətləri

---

[11] https://wcd.coe.int/ViewDoc.jsp?id=1839497

[12] http://www.irfs.az/content/view/8290/28/lang,en/

[13] http://www.irfs.az/content/view/8137/lang,az/

[14] http://en.rsf.org/azerbaijan-journalists-pay-the-price-as-azeri-21-02-2012,41916.html

[15] http://www.irfs.az/content/view/8224/28/lang,eng/ and http://www.irfs.az/content/view/7711/28/lang,eng/

[16] Preventiv Cavab Qrupu, Əvəz Zeynallının həbsi ilə bağlı Hesabat, 11 yanvar 2011-ci il

[17] http://en.rsf.org/azerbaidjan-newspaper-hounded-editor-jailed-04-11-2011,41345.html

başa çatmadan azadlığa buraxılmışdır. Lakin bu halların heç birində ədalət bərqərar olmamışdır, belə ki azadlığa buraxılma şərtləri keçmiş məhbusların reputasiyalarına kölgə salan və xaricə səfərlər, yaxud dövlət strukturlarında işləmək üçün maneələr yaradacaq cinayət keçmişi ilə baş-başa qoymuşdur.

Azərbaycanın siyasi məhbuslar məsələsi xüsusi məruzəçi Christoph Strässer-ə Azərbaycanda siyasi məhbuslar məsələsini araşdırmaq tapşırığının verildiyi AŞ-də getdikcə daha çox diqqət cəlb edən araşdırma mövzusuna çevrilmişdir. Bu günədək Azərbaycanın hakim strukturları Strässerlə əməkdaşlıq etməmiş, onun mandatı çərçivəsində tələb olunan hesabatın hazırlanması üçün faktaraşdırıcı səyahət həyata keçirmək məqsədilə ölkəyə səfər etməsi üçün viza müraciətləri rədd edilmişdir. Strässerə viza verilməməsi nəticəsində PACE Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsi 2012-ci il 26 yanvar tarixində Strazburq şəhərində vəziyyətlə bağlı iclas çağırmışdır. Strässer ölkədə təxminən 70 siyasi məhbusun işini araşdırır[18]. Belə bir yayğın fikir mövcuddur ki, siyasi motivli ittihamlarla həbs olunmuşlar 2012-ci ilin mayında keçiriləcək Avroviziya mahnı Müsabiqəsindən əvvəl mühakimə edilməyəcəklər, belə ki onlar siyasi məhbuslar siyahısını daha da uzadacaqları üçün hökumətə mənfi təsir göstərə bilər.

### Xarici jurnalistlər üçün səyahət məhdudiyyətləri

ABTQ-nin 2010-cu ilin sentyabr ayında Azərbaycana təşkil etdiyi birgə missiyadan sonra hakimiyyət orqanları xarici jurnalistlərin ölkəyə səfər edib burada işləmə imkanlarını məhdudlaşdırmaq üçün davamlı olaraq hüquqi müddəalardan istifadə etmişdir.

Almaniyanın “Frankfurter Allgemeine Zeitung” qəzetinin müxbiri Michael Ludwig 2011-ci ilin iyul ayında Naxçıvana gəlişi zamanı yerli hakimiyyət tərəfindən təzyiqlə üzləşmişdir. Xarici İşlər Nazirliyinin xüsusi mətbuat akkreditasiyası verməsinə baxmayaraq, Naxçıvanın hakim qurumları ilkin olaraq onun işləməsinə icazə verməkdən imtina etmiş, daha sonra isə ancaq hökumət nümayəndəsinin müşayiəti ilə səyahət etməsinə razılıq vermişdir. Bu isə onun müstəqil şəkildə müsahibələr götürməsinə və mövzusunu araşdırmasına mane olurdu[19]. Həmçinin 2011-ci ilin iyul ayında Rusiyanın “İzvestiya” qəzetinin müxbiri Yuri Sneqriyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazmış olduğu və hökumətin onun erməni perspektivlərini nümayiş etdirdiyini iddia etdiyi iki məqaləsi əsasında Azərbaycana daxil olması qadağan edilmişdir.

2011-ci ilin iyununda “Bloomberg” şirkətinin foto-jurnalisti Diana Markosyanın soyadının erməni soyadına bənzəməsi səbəbilə aeroportda Azərbaycana daxil olmasına icazə verilməmişdir. 2011-ci ilin may ayında “Exo Moskvı” radio stansiyasının redaktor müavini Sergey Buntmanın tanınmamış Dağlıq Qarabağ Respublikasının rəhbərləri ilə aparmış olduğu müsahibəsindən sonra Azərbaycana daxil olması qadağan edilmişdir[20]. 2011-ci ilin aprelində “New York Times” qəzetinin müxbiri Sərhədsiz Reportyorlar Təşkilatına bildirmişdir ki, ona, ancaq ölkə ilə bağlı

---

[18] http://www.rferl.org/content/azerbaijan_continues_refuses_visa_to_council_of_europe_official/24456379.html

[19] http://en.rsf.org/azerbaidjan-authorities-in-lawless-nakhchivan-03-08-2011,40668.html

[20] http://en.rsf.org/armenie-foreign-reporters-barred-from-06-07-2011,40610.html

yazmış olduğu bütün məqalələrini təqdim edib ABŞ mətbuatında Azərbaycan haqqında yaymış olduğu "mənfi məlumatların" çoxluğunun səbəbini izah edərsə, Azərbaycan vizasının veriləcəyini söyləmişlər[21].

2011-ci ilin aprelində Azərbaycanın Miqrasiya Xidməti Bakıda insan hüquqları və ifadə azadlığı haqqında sənədli film çəkən İsveç televiziyası qrupunun üç üzvünü deportasiya etmişdir. My Rohwedder Street, Charlie Laprevote və Charlotta Wijkström demokratiya tərəfdarlarının etiraz aksiyasını lentə almağa çalışarkən saxlanmışdır. Jurnalistlərin etibarlı vizaları olmasına baxmayaraq, onlara ölkədə işləmək üçün lazımı akkreditasiyalarının olmadığı bildirilmişdir. Jurnalistlər onları saxlamış mülki geyimli şəxslərin onların rəqəmsal kameralarını da müsadirə etdiyini və yaddaş kartlarındakı kadrları sildiyini bildirmişdir[22].

---

[21] http://en.rsf.org/armenie-foreign-reporters-barred-from-06-07-2011,40610.html

[22] http://cpj.org/2011/04/swedish-television-crew-detained-deported.php

# 5. İfadə və dinc toplaşma azadlığı: qarşılıqlı olaraq güclənən, qarşılıqlı olaraq məhdud

Müəllif: Rebecca Vincent, ARTİCLE 19-un IPGA layihə koordinatoru

Bəlkə də ABTQ-nin 2010-cu ilin sentyabrında ölkəyə təşkil etdiyi birgə missiyadan sonra Azərbaycanın ifadə azadlığı ilə bağlı mühitində baş vermiş ən mühüm dəyişikliklərdən biri rejimin siyasi və sosial siyasətlərinə qarşı etiraz etmək üçün küçələrə çıxan və sıraları getdikcə artan azərbaycanlılar olmuşdur. Buna cavab olaraq hökumət vətəndaşlarının toplaşma azadlığını kəskin şəkildə məhdudlaşdırmaq üçün tədbirlər görmüş, təzyiqlər göstərmişdir.

## Beynəlxalq çərçivə

İfadə və dinc toplaşma azadlıqları demokratik cəmiyyət üçün təməl xarakter daşıyan mükəmməl və qarşılıqlı olaraq güclənən azadlıqlardır. İfadə azadlığından tam şəkildə istifadə dinc toplaşma azadlığından tam istifadəyə əsaslanır, belə ki, qruplar kollektiv fəaliyyətlər müzakirə etmək üçün öz aralarında, dövlətlə və digər qeyri-dövlət tərəfləri ilə səmərəli şəkildə kommunikasiya yarada bilməlidir. İfadə azadlığı olmadıqda qruplar özlərini azad şəkildə ifadə edə və məqsədlərini, maraq və tələblərini ictimaiyyətə çatdıra bilmir[1].

Əhalinin siyasi mesajları çatdırmaq üçün ən səmərəli vasitələrə çıxışı olmadıqda, məsələn, Azərbaycanda olduğu kimi kütləvi informasiya vasitələrinə dövlət nəzarət etdikdə, dinc şəkildə toplaşma imkanı ifadə azadlığı üçün xüsusilə zəruri olur[2]. Amerika Dövlətləri Təşkilatının İfadə Azadlığı üzrə xüsusi məruzəçisinin qeyd etdiyi kimi, “xüsusilə də qrupların özlərini ictimai şəkildə ifadə etmələri üçün digər yollar olmadığı hallarda etirazlara qeyri-proporsional məhdudiyyətlərin qoyulması ifadə azadlığını ciddi şəkildə təhlükə altına atır”[3].

İfadə azadlığında olduğu kimi Azərbaycan, BMT-yə, Avropa Şurasına (AŞ), ATƏT-ə üzvlüyü və Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt və Avropa İnsan Hüquqları Konvensiyası kimi beynəlxalq və regional insan hüquqları sazişlərinə çıxışı vasitəsilə dinc toplaşma azadlığına hörmət etməyə borcludur[4]. Vətəndaşlarının bu hüquqlarını həyata keçirmək qabiliyyətini məhdudlaşdırmaqla Azərbaycan hökuməti insan hüquqları üzrə beynəlxalq öhdəliklərini pozur və demokratiya prinsiplərinə əməl etmə ehtimallarını sual altına qoyur.

AŞ-nin insan hüquqları komissarı Thomas Hammarberg 2011-ci ilin sentyabr ayında Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyətə dair müşahidələrdə qeyd etmişdir ki, Avropa İnsan Hüquqları Məhkəməsi “zorakılıq oyatma və ya demokratik prinsiplərdən imtina kimi hallardan fərqli olaraq toplaşma və ifadə azadlıqlarını sıxışdırmaq üçün preventiv xarakterli çoxsaylı tədbirlər, bəzi istifadə olunmuş fikir və ya sözlər hakimiyyət üçün nə dərəcədə şokedici və qəbuledilməz olsa və irəli sürülmüş tələblər nə dərəcədə qeyri-qanuni olsa belə, demokratiyaya xələl gətirir və çox vaxt onu təhlükəyə atır. Demokratik cəmiyyətdə qanunun aliliyi prinsipinə əsaslanaraq mövcud vəziyyət üçün çətinlik törədən və reallaşması sülh yolu ilə mümkün olan siyasi ideyaların toplaşma azadlığının icrası və digər qanuni vasitələrlə ifadə olunması üçün xüsusi

[1] http://www.wiltonpark.org.uk/resources/en/pdf/22290903/2012/wp1154-report

[2] Bax: Fəsil 9, Mediaya dövlət nəzarəti

[3] http://www.cidh.oas.org/annualrep/2008eng/Annual%20Report%202008-%20RELE%20-%20version%20final.pdf

[4] Misal üçün, Avropa İnsan Hüquqları Məhkəməsi bəzi hallarda qeyd etmişdir ki, “AİHK-nin 11-ci Maddəsində nəzərdə tutulan toplaşma və birləşmə azadlıqlarının məqsədlərindən biri fikirlərin müdafiəsi və onları ifadə etmək azadlığıdır. Bax: Türkiyənin Birləşmiş Kommunist Partiyası və digərləri Türkiyəyə qarşı (1998).

imkan yaradılmalıdır”[5]. Hammarberg Azərbaycanın hakim orqanlarını presedent hüquqa uyğun olaraq toplaşma azadlığına hörmətlə yanaşılmanı təmin etməyə vadar etmişdir[6].

## Toplaşma azadlığına məhdudiyyətlər

Azərbaycanın hakimiyyət orqanları təcrübədə toplaşma azadlığını məhdudlaşdırmaq üçün tədbirlər görməyə davam etmişdir. Bunun bir yolu nümayiş keçirmədən öncə icazə üçün müraciət etmə tələbinin qoyulmasıdır. Hakimiyyət strukturları çox vaxt gənclər hərəkatları və müxalif siyasi partiyaların müraciətlərini rədd edir, yaxud Bakının mərkəzindən çox uzaqda olduğu üçün qənaətbəxş hesab edilməyən əvəzləyici yerlər təklif edirlər[7]. İcazəsiz baş tutan nümayişlər isə hədsiz güc tətbiqi ilə dağıdılır və çoxsaylı həbslərlə və qeyri-proporsional şəkildə sərt inzibati cəzalar və ya mühakimə ilə nəticələnir.

NİDA Vətəndaş Hərəkatından verilən məlumata görə, məhdudiyyətlər sancaq ictimai toplaşmalarla məhdudlaşmır. Bakıda yerləşən Hilton və Hyatt Regency otelləri də özəl məkanlar olmalarına baxmayaraq gənclər hərəkatlarının onların təsisatlarında görüş keçirmək üçün müraciətlərini rədd etməyə başlamışlar[8]. NIDA fəalı Turqut Qəmbər bu məsələyə belə şərh vermişdir: “Əvvəl bizi küçələrdən topladılar, daha sonra binalardan qovdular. İndi isə evlərimizdən atılmağa başlamadan öncə bu problemi aradan qaldırmalıyıq”[9].

2012-ci il mart ayının 6-da Bakı polisi şəhərin mərkəzində keçirilən dinc nümayişi dağıtmaq üçün hədsiz güc tətbiq etmişdir. Keçmiş siyasi məhbus Cabbar Savalan və Dəyanət Babayev daxil olmaqla dörd gənc fəal döyülmüş, ümumilikdə on dörd etirazçı və bir jurnalist həbs olunmuşdur. Etirazçılar ötən il etiraz nümayişlərində iştirak etdiyinə görə həbs olunmuş iki siyasi məhbus – Babək Həsənov və Məhəmməd Məcidlinin 4 mart 2012-ci il tarixində həbsxana əməkdaşları tərəfindən döyüldüyü xəbərlərinin alınmasından sonra siyasi məhbusları azadlığa buraxmağı tələb etmək məqsədilə toplaşmışdılar[10].

2012-ci ilin martın 1-də Azərbaycanın Quba şəhərinin 1000-ə yaxın sakini icra başçısı Rauf Həbibovun torpaqlarını satdıqlarına görə qubalıları “satqın” və “nankor” adlandırmasına cavab olaraq küçələrə tökülmüşdür. Prezident administrasiyası növbəti gün Həbibovu vəzifəsindən azad etmişdir[11]. Qiyam polisi etirazçıları dağıtmaq üçün hədsiz güc tətbiq etmişdir. Ən az iki jurnalist ciddi şəkildə yaralanmış, digər beşi isə gözyaşardıcı qazın təsirinə məruz qalmışdır[12]. Bu hadisələri şərh edən ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunja Mijatović bildirmişdir ki,

---

[5] Stankov və Birləşmiş Makedoniya Təşkilatı Ilinden Bolqarıstana qarşı, 2 oktyabr 2001, para. 86 və 97

[6] https://wcd.coe.int/ViewDoc.jsp?id=1839497

[7] http://www.amnesty.org/en/library/asset/EUR55/011/2011/en/831dedec-1c7a-47a3-99ec-f59d1c2f3a19/eur550112011en.pdf, səh.20-21

[8] https://www.facebook.com/events/209385509158058/

[9] Turqut Qəmbərin ARTİCLE 19-la müsahibəsi, 5 mart 2012-ci il

[10] http://amnesty.org/en/news/azerbaijani-youth-activists-beaten-and-detained-peaceful-protest-2012-03-06

[11] http://www.rferl.org/content/azerbaijani_governor_sacked/24502635.html

[12] http://www.irfs.az/content/view/8206/28/lang,eng/

“Bu insident jurnalistlərin qorxmadan öz peşəkar vəzifələrini yerinə yetirmələri üçün daha yaxşı müdafiə olunmalı olduqlarını bir daha diqqət mərkəzinə gətirir. İctimai asayişi bərqərar edərkən polis də jurnalistlərə qarşı hücumların olmamasını və onların ictimai hadisələri təhlükəsiz şəkildə işıqlandırmalarını təmin etməlidir”[13].

2011-ci ilin mart və aprel aylarında Yaxın Şərq və Şimali Afrika dövlətlərində geniş vüsət alan xalq üsyanlarından ilhamlanaraq silsilə dinc nümayişlər keçirmək üçün yüzlərlə azərbaycanlı küçələrə çıxmışdır. Aksiyalar gənclər hərəkatları və müxalif siyasi partiyalar da daxil olmaqla müxtəlif qruplar tərəfindən təşkil olunmuşdur. Cavab olaraq hakim strukturlar etirazçıları dağıtmaq üçün hədsiz güc tətbiq etmiş, yüzlərlə nümayişçini həbs etmiş, o cümlədən qabaqlayıcı tədbir olaraq çox sayda siyasi fəalı saxlamışdır[14]. Beynəlxalq Amnistiya Təşkilatının “dinc aksiyanın kriminallaşdırılması” adlandırdığı narahatlıq doğuran yeni addımında hökumət, etiraz aksiyalarını təşkil etmək və ya onlarda iştirak etmək ittihamları ilə 14 siyasi fəal haqqında cinayət təqibi başlatmışdır[15].

Haqlarında cinayət təqibi başladılmış fəallardan on biri 2011-ci ilin mart və aprel aylarındakı aksiyalarda həbs olunduqdan sonra hələ də həbsxanadadır: Tural Abbaslı, Arif Alışlı, Zülfüqar Eyvazov, Ülvi Quliyev, Arif Hacılı, Rüfət Hacıbəyli, Şahin Həsənli, Babək Həsənov, Sahib Kərimov, Elnur Məcidli, Məhəmməd Məcidli və Əhəd Məmmədli[16]. Aksiyalarda saxlandıqdan sonra həbs edilmiş digər iki fəalı bu yaxınlarda azadlığa buraxılmışdır; Elşən Həsənli 2012-ci il 22 fevral tarixində erkən azadlığa buraxılmış,[17] Elnur İsrafilov isə 2012-ci il 15 mart tarixində prezidentin əhv fərmanı ilə azad edilmişdir[18]. İnsan hüquqları müdafiəçisi Vidadi İsgəndərov da etiraz aksiyalarında iştirak etdiyi üçün saxlanmış, lakin bunun əvəzinə 2010-cu ilin noyabr seçkilərinə müdaxilə etmək ittihamı ilə mühakimə olunmuşdur[19].

Bloqçu və vətəndaş cəmiyyəti fəalı Bəxtiyar Hacıyev hərbi xidmətdən yayınma ittihamı ilə təqsirli bilindiyi iki illik cəza müddətini çəkməkdədir. Onun Facebook vasitəsilə 2011-ci lin mart aksiyalarından birinin təşkil olunmasındakı roluna görə hədəf alındığı məlumdur[20]. Həmin aksiyanı Facebook vasitəsilə təşkil edənlərdən digəri, Strasburqda yaşayan bloqçu Elnur Məcidli hakimiyyəti zorakı yollarla devirməyə çağırmaqda ittiham olunmuş və onun 12 ilədək həbsi istənmişdir. Bu ittihamlar daha sonra geri çəkilsə də, Məcidli hələ də ictimai həyatda iştirak etmək hüququnun məhdudlaşdırılması ilə üzləşir[21]. Narkotik vasitə saxlama kimi qondarma ittihamla 11 aylıq həbs cəzası çəkmiş və 2011-ci ilin dekabrında prezidentin əfv fərmanı ilə erkən azadlığa

---

[13] http://www.osce.org/fom/88652

[14] http://www.amnesty.org/en/library/asset/EUR55/011/2011/en/831dedec-1c7a-47a3-99ec-f59d1c2f3a19/eur550112011en.pdf, sah 17-21

[15] Ibid, sah 27-29

[16] Ibid, sah 26-32

[17] http://www.rferl.org/content/azerbaijani_opposition_activist_released_early_from_jail/24492862.html

[18] http://www.contact.az/docs/2012/Politics/03153135en.htm

[19] Bax: 4-cü Fəsil, “İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə”

[20] Bax: 4-cü Fəsil, “İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə”

[21] http://www.indexoncensorship.org/2011/04/azerbaijans-facebook-dissident/

buraxılmış siyasi fəal Cabbar Savalanlı da Facebook vasitəsilə xalqı etiraz etməyə çağırdığı üçün hədəfə çevrilmişdir[22].

## 2010-cu ilin parlament seçkilərində toplaşma azadlığı

Azərbaycanda seçkilər zamanı ölkədə baş verən insan hüquqları, xüsusilə də ifadə və toplaşma azadlıqları ilə bağlı bir çox problemləri beynəlxalq miqyasda işıqlandırmaq üçün imkan yaranır. ABTQ-nin Azərbaycana birgə missiyasından sadəcə iki ay sonra, 2010-cu ilin noyabrında ölkədə demokratik seçkilərə dair beynəlxalq standartlara cavab verməmiş parlament seçkiləri keçirilmişdir.

ATƏT/DTİHB-in Seçkiləri Müşahidə Missiyasının Yekun Hesabatına əsasən, 2010-cu ilin seçkilərində "Fundamental dinc toplaşma və ifadə azadlıqları məhdudlaşdırılmış, azad və müstəqil media vasitəsilə həyata keçirilən canlı siyasi dialoq mümkün olmamışdır"[23]. Hesabatda bildirilir ki, seçkilərdən qabaq "heç bir geniş ictimai görüşlər və ya təşviqat kampaniyaları aparılmamışdır." Yerli hakimiyyət orqanları namizədlərin kiçik kampaniya görüşləri keçirməsi üçün xüsusi yerlər ayırmağına baxmayaraq, hesabatda ATƏT müşahidəçilərinə "rəsmi qaydada ayrılmış yerlər də daxil olmaqla namizədlərin kampaniya fəaliyyətlərinə polis və yerli hakimiyyət tərəfindən maneələrin yaradılması haqqında məlumatlar verildiyi" qeyd olunur[24].

---

[22] http://www.irfs.az/content/view/7961/28/lang,eng/

[23] http://www.osce.org/odihr/elections/azerbaijan/75073, sah 1

[24] Ibid, sah 11

# 6. Birləşmə azadlığı: QHT-lərə, insan hüquqları müdafiəçilərinə və vəkillərə təzyiqlər

Müəllif: İnsan Hüquqları Evi Fondu

Azərbaycanın hökumət orqanları birləşmə hüququnun Azərbaycan Respublikası üçün başlıca dəyərlərdən olduğunu dəfələrlə təsdiq etmişlər. BMT İnsan Hüquqları Şurasına sonda uğursuzluqla nəticələnən namizədliyi zamanı Azərbaycan bildirmişdir ki, "qanunun aliliyinin, demokratiya, insan hüquqları və fundamental azadlıqların müdafiəsi milli inkişafın başlıca prinsipləridir." İnsan hüquqları müvəkkillərinin və onların təşkilatlarının işi bu prinsiplərin müdafiəsində həlledici rola malikdir.

Ötən bir neçə il ərzində Azərbaycan hökuməti bu müvəkkillərin susdurulması, həm milli, həm də beynəlxalq insan hüquqları təşkilatlarının bağlanması istiqamətində mərhələli kompaniya ilə məşğul olmuşdur.

**QHT-lər qarşısında qanunvericilik əngəlləri**

2009-cu ildə Azərbaycan Milli Məclisi QHT-lər haqqında qanuna yeni düzəlişlər etdi, 2011-ci ilin mart ayında isə bunu beynəlxalq QHT-lərin qeydiyyatı üçün yeni tələblər müəyyən edən dövlət sərəncamı izlədi. İndi ölkədə fəaliyyət göstərmək üçün icazə almaq istəyən beynəlxalq QHT-lərdən Azərbaycan hökuməti ilə başqa aspektlərlə yanaşı QHT-lərin milli mənəvi dəyərlərə hörmətlə yanaşmasına, siyasi və dini təşviqatla məşğul olmadığına təminat verəcək razılığa gəlmək tələb edilir.

Azərbaycan qanunvericiliyinə əsasən, bildirilən qanun pozuntularının bil il ərzində aradan qaldırılmasını tələb edən iki xəbərdarlıq almış təşkilat bağlana bilər. Bu müddəa heç bir ayrı-seçkiliyə yol verilmədən, qanun pozuntusunun və nəticələrinin ciddiliyindən asılı olmayaraq tətbiq edilir.

"Milli mənəvi dəyər" və "siyasi, yaxud dini təşviqat"ın tərifləri müəyyən edilmədiyindən, 19 oktyabr 2011-ci ildə Hüquq Vasitəsilə Demokratiya Uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası) qaydaları qeyri-müəyyən olduğuna görə tənqid etmişdir. Bundan əlavə, Venesiya Komissiyası danışıqların müddətinin müəyyən edilməməsini tənqid etmiş və yeni qaydalara beynəlxalq standartların pozulması kimi istinad etmişdir[1].

QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri millət vəkili Azay Quliyev bu yaxınlarda yazır: "İnanıram ki, QHT-lərin səmərəli fəaliyyəti naminə və bu sahədə qalmaqda olan bütün problemlərin aradan qaldırılması üçün qanunvericilik çərçivəsinin təkmilləşdirilməsi, yeni və zəruri qanunların qəbulu prosesi gələcəkdə də davam edəcək"[2].

**QHT-lərin bağlanması və QHT-lərə qarşı təhdidlər**

Azərbaycan İnsan Hüquqları Evinin bağlanması Azərbaycanda insan hüquqları təşkilatlarının üzləşdiyi çətinliklərə işıq saldı[3].

---

[1] "Venesiya Komissiyasının Azərbaycanın QHT-lər haqqında Qanunu barədə tənqidi": http://humanrightshouse.org/Articles/17215.html

[2] Azay Quliyev, sitat gətirilən əsər., səh. 97.

[3] Bax: http://humanrightshouse.org/Azerbaijan

2007-ci ildə İnsan Hüquqları Evi Fondunun Azərbaycan filialı kimi təsis edilmiş İnsan Hüquqları Evinə 2011-ci il mart ayının 10-da əvvəlcədən heç bir xəbərdarlıq edilmədiyi halda Azərbaycanda fəaliyyət göstərə bilmək üçün hökumətlə razılığa gələnə qədər fəaliyyətlərini dayandırmaq əmri verildi. 2007-ci ildən bəri İnsan Hüquqları Evi müvafiq orqanlara mütəmadi olaraq və vaxtında hesabat vermişdir. QHT-lər haqqında qanunda artıq qeydiyyatdan keçmiş və Azərbaycanda fəaliyyət göstərən QHT-lərə münasibətdə Ədliyyə Nazirliyi ilə razılığa gəlmək barədə hər hansı tələb irəli sürülmürdü. 10 mart 2011-ci ildən əvvəl nə rəsmi bir xəbərdarlıq edilmiş, nə də Azərbaycan İnsan Hüquqları Evinin dövlət orqanlarına vaxtında və müntəzəm hesabat verməməsi barədə narazılıq ifadə olunmuşdu. Bir ildir davam edən danışıqlara baxmayaraq, hələ də Azərbaycan İnsan Hüquqları Evinin yenidən açılmasına icazə verilmir[4].

Venesiya Komissiyasının rəyində də bildirildiyi kimi (85-ci bənd) "qanun tərəfindən müəyyən edilmiş məhdudiyyətlər, yaxud demokratik cəmiyyətdə ətraflı və aydın müəyyən edilmiş məqsədlərə görə tələb olunnmadıqca hər hansı birliyin ifadə azadlığı dövlət orqanlarının göstərişlərinə tabe tutula bilməz"

Azərbaycan İnsan Hüquqları Evinə qarşı yönəlmiş hərəkətlər aysberqin yalnız görünən hissəsidir, doğrudan da Azərbaycan QHT-lərinin vəziyyəti daha yaxşı deyil. Onlar müntəzəm olaraq hökumət tərəfindən müdaxilələrə və təhdidlərə məruz qalırlar. Məsələn, 2012-ci ilin fevral ayında RATİ Ədliyyə Nazirliyindən sədrinin təkrar seçilməsi barədə hesabatın verilmədiyini bildirən xəbərdarlıq almışdır. Məktubda həmçinin RATİ-nin Naxçıvan Muxtar Respublikasından insan hüquqları ilə bağlı vəziyyət barədə internetdə yerləşdirilmiş hesabatının qərəzli olduğu, hökumət orqanları tərəfindən uydurma hesab olunduğu bildirilmişdir. Oxşar məktub Naxçıvandakı Demokratiya və QHT-lərin İnkişafı üzrə Resurs Mərkəzinə ünvanlanmışdır. Bu iki yerli QHT hələ də ərazidə fəaliyyət göstərən azsaylı insan hüquqları QHT-lərindəndir və bu xəbərdarlıqlar qeydiyyatdan keçmiş QHT kimi onların mövcudluğu üçün ciddi təhlükə təşkil edir.

19 aprel 2011-ci ildə Media Hüquqları İnstitutu Ədliyyə Nazirliyindən inzibati sanksiyaların mümkünlüyü barədə xəbərdarlıq almışdır, belə ki Media Hüquqları İnstitutu Nazirliyə sədrinin dəyişməsi barədə məlumat verməmişdir. Media Hüquqları İnstitutu təşkilat sədri dəyişmədiyindən, sadəcə təkrar seçildiyindən xəbərdarlığın qəbuledilməz olduğunu bildirərək Nazirliyə cavab vermişdir. Media Hüquqları İnstitutunun verdiyi məlumata görə, qanunda təkrar seçilmə barədə məlumatın Ədliyyə Nazirliyinə göndərilməli olduğu deyilmir.

### Dövlət qeydiyyatı repressiya aləti kimi

Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında 2003-cü ildə qəbul edilmiş qanun Azərbaycanda QHT-lərin qeydiyyatı üçün birgə fəaliyyət prosesi nəzərdə tutur. Hətta qanunun 8-ci maddəsində göstərilmiş müddətlərin sürətli proses olacağına da inanmaq olar: "Bir qayda olaraq qeydiyyat prosesi üçün 40 gün, müstəsna hallarda 30 gün uzadılma ehtimalı və ərizə sənədlərində çatışmazlıq olduqda, daha 20 gün"[5].

---

[4] İHEF-nin bəyanatı "Azərbaycan İnsan Hüquqları Evi Azərbaycan hökuməti tərəfindən bağlanmışdır": http://humanrightshouse.org/Articles/16060.html

[5] Azay Quliyevin bildirdiyinə görə, "QHT-lər bir institut olaraq Azərbaycan Respublikasının qanunvericiliyində": Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Jurnal, cild 13, say 4, dekabr 2011, səh. 95

Lakin reallıq tamam fərqlidir[6], belə ki, tənqidçi təşkilatların susdurulmasının daha bir üsulu onların qanuni işlərini qanuni qaydada aparmağa icazə verməməkdir. Çoxsaylı QHT-lər qaydaların qeydiyyatın yubanması ilə nəticələnən, sui-istifadə ehtiva edən tətbiqi ilə üzləşirlər. QHT-lərin qeydiyyatı proseduru getdikcə daha mürəkkəb bir prosedura çevrilir və qeydiyyat prosesində çox vaxt uzunmüddətli yubanmalar meydana gəlir.

Əvvəlki təşkilat Seçkilərin Monitorinqi Mərkəzi (SMM) 2008-ci il prezident seçkiləri ərəfəsində bağlandıqdan sonra, onun qurucuları yeni Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) təsis edib qeydiyyat üçün müraciət etmişdir. Ədliyyə Nazirliyinin SMM-i ləğv etmək qərarını təşkilatın ünvanın dəyişməsi və regional filiallarının qeydiyyatı barədə bildiriş verməməsiylə əsaslandırdı[7]. SMDT-nin qeydiyyat barədə ərizələri isə 2008-ci ildən bəri üç dəfə müxtəlif xırda uyğunsuzluqlar əsas gətirilməklə geri qaytarılmışdır.

İntiqam Əliyev və digərlərinin Avropa İnsan Hüquqları Məhkəməsindəki işi bu problemə nümunə ola bilər. 2003-cü ilin may ayında İntiqam Əliyev və daha 10 hüquqşünas qeyri-kommersiya təşkilatı olan Azərbaycan Hüquqşünasları Forumunu təsis etdilər. Ərizəçilər birliyin dövlət qeydiyyatından keçirilməsində əhəmiyyətli yubanmaları olduğundan şikayət edirdilər. Bu o demək idi ki, birlik hüquqi status almaya bilərdi. Avropa İnsan Hüquqları Məhkəməsi bu qənaətə gəldi ki, birliyin qeydiyyat tələbinə gec cavab verilməsi faktiki olaraq onu qeydiyyata almaqdan imtina etməyə bərabərdir[8]. İntiqam Əliyev Azərbaycanda tanınmış insan hüquqları müdafiəçisidir. O, insan hüquqları pozuntularının qurbanlarının hüquqi müdafiəsi ilə fəal şəkildə məşğuldur. Avropa İnsan Hüquqları Məhkəməsi qərar verdi: “təkcə Ədliyyə Nazirliyini prosessual tələblərin pozulmasına görə məsuliyyətdən azad edən yeni […] aktın qüvvəyə minməsi belə ədalət və hüquqi müəyyənliyə ziddir”

Başqa sözlə, Venessiya Komissiyasının bildirdiyi kimi, qeydiyyat haqqında müəyyən edilən vaxt çərçivəsi “ehtiyatla riayət olunduğu halda və müddətin uzadılması doğrudan da “müstəsna hallar” üçün saxlanacağı təqdirdə qəbul edilə bilərdi”[9]. Artıq 2002-ci və 2006-cı illərdə ATƏT hesabatları göstərirdi ki, bəzi ərizələr, xüsusən insan hüquqları QHT-lərinə aid olanlara “müstəsna” yanaşılır. Qısası, “Əsas çatışmazlıqlar QHT-lərin qeydiyyatının uzun və mürəkkəb prosedur olması, prosedurun nəticələrinin proqnozlaşdırılmasının çətin olması faktıdır. Qeydə alınmış praktika göstərir ki, qeydiyyat üçün müraciət etmiş QHT-lərdən bəziləri heç vaxt rəsmi qərar ala bilməyiblər, bu qərarı ala bilənlər isə çox vaxt uzun müddət gözləməli olublar”[10].

### İnsan hüquqları müdafiəçiləri və hüquqşünaslar: açıq qurbanlar

Bir çox digər Avropa ölkələrinin Parlament nümayəndələrindən fərqli olaraq, azərbaycanlı millət vəkilləri insan hüquqları müdafiəçilərini tənqid etməkdən utanmırlar və bunu nümayişkaranə surətdə edirlər. 2011-ci ilin yanvar ayında bəzi insan hüquqları müdafiəçilərinin Avropa Şurasının

---

[6] Bu mövzuda daha ətraflı məlumat üçün bax: Vüqar Hüseynov, QHT-lərin dövlət qeydiyyatının cari vəziyyəti, Demokratiyanın Tədrisi İctimai Birliyi, 2011

[7] Bax: http://dazzlepod.com/cable/08BAKU454/

[8] Əliyev və digərləri Azərbaycana qarşı , AİHM, 28736/05, 18 dekabr 2008.

[9] Venesiya Komissiyası, Rəy № 636 / 2011, 19 oktyabr 2011, 62-ci bənd

[10] Venesiya Komissiyası, sitat gətirilən iş, 60-cı bənd.

Strasburqda keçirilən Parlament Assambleyasında iştirakına reaksiya kimi 2011-ci ilin fevral ayında spiker Oqtay Əsədov onları heç vaxt Azərbaycan haqqında müsbət rəy söyləməməkdə, ölkə haqqında xoşagəlməz təəssürat yaratmaqda ittiham etdi və əlavə etdi: "Bu məsələlərə qarşı tədbir görməliyik[11].

Dövlət orqanları bu tədbirləri görməkdə tərəddüd etmədilər; bir müddət sonra həmin ay Azərbaycan İnsan Hüquqları Evi və RATİ-də polis yoxlaması aparıldı. "Demokratiya üçün oxu" kompaniyasına qoşulanlar da Azərbaycanda insan hüquqları pozuntuları barəsində hesabat verdikləri üçün hədəfə götürülmüşdülər[12] İnsan hüquqları müdafiəçiləri, sosial media istifadəçiləri və gənc fəallar təkrar-təkrar nümayişlərdə amansız polis repressiyasına məruz qalırlar, onlardan bəziləri saxlanmış və həbs olunmuşdur.

2012-ci ilin mart ayında Gəncədə hökumət orqanları yerli təşkilatları yerləşdikləri ünvandan köçürüb. 2011-ci ilin avqustunda isə onlar Bakı şəhərinin mərkəzində yerləşən Sülh və Demokratiya İnstitutu, Minalar Əleyhinə Kompaniya və Qadın Krizis Mərkəzinin fəaliyyət göstərdiyi binaları uçurdublar.

Hökumət repressiyalarının daha bir konkret hədəfi hüquqşünaslardır. Bir neçə hüquqşünasa açıq-aşkar məhkum edilənlərin hüquqlarının müdafiə etməmək barədə xəbərdarlıq edilmişdir. Bu sıxışdırılmadan əlavə, hökuməti tənqid etdiyinə görə hədəfə götürülənləri hüquqi məsləhətlə təmin etməyə cəsarət edənlərə qarşı konkret addımlar atılmışdır.

İki Hüquqşünas Vəkillər Kollegiyasından çıxarılmış, bir hüquqşünasın lisenziyasına xitam verilmişdir:

- 2011-ci ilin aprel ayında həbs olunmuş nümayiş iştirakçılarının müdafiəsi ilə fəal şəkildə məşğul olan tanınmış hüquqşünas Elçin Namazov 2011-ci ilin sentyabr ayında məhkəmə qərarı ilə Vəkillər Kollegiyasından uzaqlaşdırılmışdır. Qərarda prokurorluğa məhkəməyə qarşı hörmətsizlik etdiyinə görə ona qarşı cinayət işi qaldırmaq göstərişi verilirdi. Bundan əvvəl isə o, gənc fəalları və müxalifət üzvlərini müdafiə etdiyinə görə xəbərdarlıq və təhdidlərlə üzləşmişdi.
- Dövlət əhəmiyyətli bir sıra cinayət işlərində vəkillik etmiş Xalid Bağırov gözlənilmədən 2011-ci ilin avqustunda bil il müddətinə Vəkillər Kollegiyasından uzaqlaşdırıldı. Buna onun həbs edilmiş insan hüquqları müdafiəçisi Vidadi İskəndərovun vəkili olmasının birbaşa nəticəsi kimi baxılır. Vəkillər kollegiyasından çıxarıldığına görə hüquqşünas öz müştərisini müdafiə etməyə davam edə bilməmişdir, beləliklə, İskəndərov 3 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir[13].
- Çoxsaylı cinayət işlərində çoxsaylı müxalifət fəallarını və ictimai xadimləri

---

[11] Bax: http://en.apa.az/news.php?id=139594.

[12] Bax: http://www.singfordemocracy.org.

[13] Bax: İfadə azadlığının boğulması üçün qanundan siyasi məqsədlərlə istifadə, Fəsil 4

müdafiə etmiş tanınmış hüquqşünas Osman Kazımovun lisenziyası 4 fevral 2011-ci ildə dayandırılmışdır. Vəkillər Kollegiyası buna istinadən məhkəməyə müraciət edərək onun kollegiyadan çıxarılmasını tələb etmişdir.

**Hədəfə götürülən digər hüquqşünaslar aşağıdakılardır:**

- Media hüquqlarının müdafiəsi uğrunda çalışan hüquqşünas Elçin Sadıxov dövlətə qarşı təşviqatla məşğul olmaqda ittiham olunur. O daha əvvəl həbs olunmuş redaktor Eynulla Fətullayevin vəkili idi.
- İntiqam Əliyev müvafiq meyarlara cavab verməsinə baxmayaraq, 2005-ci ilin noyabr ayında Vəkillər Kollegiyası üzvlüyündən məhrum edilmişdir. 2011-ci ilin aprel ayında yüzlərlə nümayişçinin həbsindən sonra, səlahiyyətli şəxslər məhkumların siyahısını onları müdafiə etmək niyyətində olan Vəkillər Kollegiyası üzvləri İntiqam Əliyev və Yalçın İmanova verməkdən imtina etmişlər. Əliyev və İmanov bəzi polis məmurları tərəfindən fiziki zorakılıq və təhqirlərə məruz qalmışlar.
- Məhkum edilmiş gənc fəallar Bəxtiyar Hacıyev və Şahin Həsənlinin hazırkı vəkili Əlaif Həsənov 2011-ci ilin mart ayında yerli dövlət orqanları tərəfindən böhtan kampaniyasına məruz qoyulmuşdur.
- Vəkillər Kollegiyasının daha bir üzvü Aslan İsmayılova guya hüquqşünasların etik davranış kodeksini pozuğunda görə xəbərdarlıq edilmişdir.

# 7. Məlumat azadlığı: fundamental hüquq

## Müəllif: Nathalie Losekoot, ARTİCLE 19-un Avropa üzrə baş proqram əməkdaşı

Azərbaycanda məlumat azadlığı ilə bağlı hazırkı vəziyyəti Media Hüquqları İnstitutunun direktoru Rəşid Hacılıdan sitat gətirməklə təsvir etmək olar: "Məlumat əldə etmək hüququ haqqında qanun qəbul ediləndə bizim böyük ümidlərimiz vardı. Lakin o gündən altı il keçsə də, gözlədiyimizi - hökumətimizi hesab verməyə vadar edən, medianın ictimai maraq doğuran məsələləri işıqlandırmasına və fərdi vətəndaşların məlumatlı qərarlar qəbul etməsinə kömək edəcək vasitəni hələ əldə edə bilməmişik"[1].

### Beynəlxalq çərçivə

Məlumat azadlığı hüququ İnsan Hüquqları üzrə Universal Bəyannamənin 19-cu Maddəsi və Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt da daxil olmaqla çoxsaylı insan hüquqları instrumentlərində irəli sürülmüşdür: "Hər bir şəxs ifadə azadlığı hüququna malikdir; bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq bütün növ məlumatları istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı daxildir."

İctimai qurumlara məxsus məlumatlara çatım üzrə fundamental hüquqla[2] bağlı getdikcə artan beynəlxalq konsensus regional standartların və bütün dünyada bu hüququ əhatə edən qanunların sayının artmasında özünü göstərir. Misal üçün, 2009-cu ilin aprel ayında AİHM AİHK-nın 10-cu Maddəsinin "məlumat əldə etmək azadlığına" təminat verməsini şərtləndirmişdir. TASZ Macarıstana qarşı[3] məhkəmə işində AİHM media və QHT-lər də daxil olmaqla digər müstəqil müşahidəçi tərəflərin "ictimai debat üçün forumların" yaradılmasında oynadığı rolun əhəmiyyətini qeyd etmiş və bu cür qrupların ictimai maraq doğuran məlumatları əldə etmə qabiliyyətinə hər hansı müdaxilənin "hərtərəfli şəkildə araşdırılmalı olduğunu" vurğulamışdır[4]. AİHM, həmçinin hökumətlərin ictimaiyyət üçün maraqlı məsələlərlə bağlı "məlumat axınına maneə yaratmamaq" haqqında öhdəliklərinin olduğunu xatırlatmışdır[5].

Məlumat azadlığına hörmətlə yanaşmaqla bağlı beynəlxalq hüquq çərçivəsində götürmüş olduğu öhdəliklərinə uyğun olaraq Azərbaycan 2005-ci ildə "Məlumat əldə etmək hüququ haqqında" Qanun vasitəsilə xüsusi hüquqi çərçivə irəli sürən hüquqi sənəd qəbul etmişdir[6]. Həm beynəlxalq, həm də yerli təşkilatlar bu qanunun qəbul edilməsini Azərbaycanda məlumat azadlığını hər kəs üçün reallığa çevirmək istiqamətində atılmış ilk mühüm addım kimi yüksək qiymətləndirmişdir. Lakin qanunun istisnaların geniş dairəsini müəyyən etməsi, qanun pozuntularına görə sanksiyalar qoymaması, bu qanunla digər qanunvericilik arasında aydın olmayan əlaqələr, o eləcə də hərtərəfli strategiya və fəaliyyət planının olmaması kimi hallar daxil olmaqla bəzi narazılıqlar yaranmışdır.

---

[1] ARTICLE 19—un Media Hüquqları İnstitutunun direktoru Rəşid Hacılı ilə müsahibəsi, 15 mart 2012-ci il

[2] Fikir və ifadə azadlıqlarının təşviqi və müdafiəsi üzrə xüsusi məruzəçinin hesabatı – Əlavə, Onillik üzrə birgə bəyanat: növbəti onillikdə ifadə azadlığı üçün on əsas çətinliklər *, 25 mart 2010-cu il http://www2.ohchr.org/english/bodies/hrcouncil/docs/14session/A.HRC.14.23.Add.2_en.pdf

[3] Társaság a Szabadságjogokért v. Hungary, Ərizə no. 37374/05, 14 aprel 2009-cu il tarixli qərar.

[4] Ibid., para 26 ve 27

[5] Ibid., para 36

[6] 30 sentyabr 2005-ci ildə Azərbaycan parlamenti tərəfindən qəbul edilmiş və 19 dekabr 2005-ci ildə prezident tərəfindən imzalanmış Məlumat əldə etmək hüququ haqqında Qanun

## Qanunun həyata keçirilməsi

Qəbul edilməsindən altı il sonra Qanunun həyata keçirilməsi ilə bağlı davamlı olaraq narazılıqlar ifadə edilmişdir. Xüsusilə də qanunun müəyyən etdiyi "İnformasiya Məsələləri üzrə Müvəkkil" institutunun yaradılmaması, siyasət və ya məlumat əldə etmə müraciətləri ilə bağlı mübahisələrin həll edilməsində irəliləyişə imkan verməmişdir. 2010-cu ilin dekabrında Azərbaycan parlamenti bu vəzifəni mövcud İnsan Hüquqları üzrə Müvəkkilə verməyi qərar almasından sonra da bu vəziyyət yaxşılaşmamışdır[7].

Gizlilik ənənəsi hələ də Azərbaycan cəmiyyəti üçün olduqca xarakterikdir və dövlət strukturları Qanunda nəzərdə tutulan öhdəliklərini tam şəkildə yerinə yetirmirlər. Azərbaycanda məlumata çıxışın olmamasının səbəblərindən birinin hökumət qurumları daxilində mövcud olan düşüncə tərzi olması geniş şəkildə qəbul edilmişdir. 2009-cu ildə ARTİLE 19-un dərc etdiyi "Kodlu qıfılları yenidən qurmağın vaxtıdır" adlı hesabatda əsasən məmurların icazə almadan hətta əhəmiyyətsiz məlumatları da verməkdən qorxduğu bir rejimin mövcud olduğu aşkarlanmışdır[8]. Son illərdə hakimiyyətyönlü media da dəfələrlə hökumət orqanlarının məlumat verməkdən imtina etdiyindən şikayətlənmişdir[9].

Rəşid Hacılının 2005-ci ildə Bakı şəhərinin keçmiş icra başçısına istinadən verdiyi digər bir şərh bu gün də aktuallığını qoruyur: "İcra başçısına küçələrin bərpası və yeni yolların tikintisi ilə bağlı sual verilmişdi. O isə çoxsaylı jurnalistlərin qarşısında "Əzizim, axı sizin mənim cibimlə nə işiniz var?" deyərək suala cavab verməkdən imtina etmişdir. Təəssüflər olsun ki, dövlət büdcəsinə birinin öz cibi kimi baxması və ona məlum olan məlumatları ev sirri kimi saxlaması hələ də əksər dövlət strukturlarında davam etməkdədir"[10].

Dövlətə məxsus internet səhifələri üzrə apardığı araşdırmalara əsaslanaraq Media Hüquqları İnstitutu 2011-ci ilin avqust ayında saytların əksəriyyətinin dövlət vəsaitləri xərclərini təsnif etmək cəhdi haqqında məlumat vermişdir[11]. Vebsaytların mövcud olması hökumət nümayəndələri tərəfindən "hər şey saytda göstərilib" bəhanəsilə məlumat əldə etmə müraciətlərinin rədd edilməsində istifadə olunur[12]. Digər imtinalar isə məlumatların artıq mətbuatda yayımlandığı iddiasından irəli gəlir. Misal üçün, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Başı şərhinin Baş Planı ilə bağlı müraciətə bununla bağlı məlumatların mütəmadi olaraq məlumat mənbələrinə (mətbuat, televiziya) veriləcəyi şəklində cavab vermişdir.

Məlumat azadlığı vətəndaşlara məlumatlı seçimlər etmək və hökumətlərinin fəaliyyətini diqqətlə izləmək imkanı verir. Dövlət orqanları ilə ümumi ictimaiyyət arasında etibar yaradarkən qərar qəbuletmə prosesində şəffaflıq və ictimai iştirak olduqca mühümdür. Məlumata fərdi çıxış hüququ olmadan dövlət orqanları məlumat axınına nəzarət edə, hökumətə zidd məlumatları gizlədə və

---

[7] http://contact.az/docs/2011/Social/09249774ru.htm

[8] http://www.article19.org/data/files/pdfs/publications/azerbaijan-freedom-of-information-report.pdf

[9] http://contact.az/docs/2011/Social/09249774ru.htm

[10] http://www.osce.org/fom/19953

[11] http://www.svobodainfo.org/en/node/1294, 1 sentyabr 2011-ci il

[12] http://www.svobodainfo.org/en/node/1256, 18 avqust 2011-ci il

ancaq hökumətin ictimaiyyət üçün müvafiq hesab etdiyi məlumatları seçib yayımlaya bilər. Belə bir mühitdə korrupsiya inkişaf edir və insan hüquqlarının pozulması halları yoxlanmamış qala bilər.

Jurnalist Xədicə İsmayıla edilmiş sonuncu hədə-qorxu da məlumat azadlığı meyarlarına olduqca ziddir və birbaşa Azərbaycanda məlumat azadlığının olmaması ilə əlaqədardır. Onun korrupsiya ilə bağlı davam edən araşdırmalarına prezidentin ailə üzvlərinin və hökumətlə əlaqəli olan digər şəxslərin biznes fəaliyyətləri haqqında məlumatların açıqlanması üçün hökumətə müraciətlər daxildir[13]. Həm hökumətin nəzarəti altında aparılan, həm də dövlətin mülkiyyətinə daxil olan müəssisələrdəki bu cür fəaliyyətlər haqqında məlumatların açıqlanmaması məhkəmə qərarları ilə bəraət qazanmışdır.

Misal üçün, 2009-cu ilin məhkəmə qərarı Azərbaycanın Dövlət Neft Şirkətini (ARDNŞ) xərcləri və digər maliyyə məsələləri ilə bağlı məlumat verməli olan “məlumat sahibi” hesab edilməməsi ilə bağlı mübahisələrə əsaslanaraq maliyyə məlumatlarını açıqlamaq öhdəliyindən azad etmişdir. ARTİCLE 19-un məlumat azadlığının pozulması kimi qiymətləndirdiyi bu qərar və Azərbaycanın korrupsiya ilə mübarizə öhdəlikləri məlumat almaq üçün edilən müraciətlərdən yayınmaqda ARDNŞ tərəfindən dəfələrlə bəhanə olaraq istifadə edilmişdir. Avropa və dünyada məlumat haqqında qanunlara çıxış dövlətə məxsus şirkətlərin aktivləri, maliyyə və idarəetməsi ilə bağlı məlumatlara çıxışı təmin edir. Bu cür məhdudiyyətlər demokratik cəmiyyətin prinsiplərinə ziddir və ictimai əhəmiyyət daşıyan məsələlər haqqında qanuni qaydada məlumat toplamağın qarşısını alır.

---

[13] http://www.reportingproject.net/occrp/index.php/press-box/1346-occrp-journalist-khadija-ismayilova-receives-award

# 8. İnternetdə ifadə azadlığı

Müəllif: Nataşa Şmit, redaktor köməkçisi, İndex on Censorship

1 mart 2012-ci il tarixdə Azərbaycanın şimal regionundakı şəhərlərdən biri olan Qubanın sakinləri yerli sakinləri ictimai şəkildə təhqir edən yerli rəsmi şəxsə (icra başçısına) etirazlarını ifadə etmək üçün toplantı keçirmişlər. Deyilənlərə görə, iddia olunan təhqir hadisəsi barədə xəbərlər YouTube portalında yerləşdirilən video materialdan sonra yayılmışdır. Bəzi etiraz hadisələri icra başçısının mülkiyyətində olan əmlaka hücumla nəticələnmişdir. Etiraz hadisələrindən sonra verilən məlumatlara görə, həmin video materialı YouTube portalında yerləşdirən şəxsin müəyyənləşdirilməsi məqsədi ilə bəzi internet kafelərdə axtarışlar aparılmışdır[1].

7 mart 2012-ci il tarixdə tanınmış təhqiqatçı jurnalist Xədicə İsmayılova özünün şantaj kampaniyasına məruz qalması barədə məlumat vermişdir. Məlumatlara görə, İsmayılova ən adi üsullarla təhdid edilmişdir. Belə ki, İsmayılovaya poçt vasitəsi ilə intim fotolar və əlavə bir məktub göndərilmişdir. Həmin məktubda ona xəbərdarlıq edilmişdir ki, "özünü yığışdırmasa" həmin şəkillər "ictimailəşdiriləcəkdir"[2]. Bu təhdidlər qarşısında səssiz qalmağa etiraz olaraq, İsmayılova cəhd olunan şantaj barədə ictimaiyyətə məlumat vermişdir. Buna cavab olaraq, 14 mart 2012-ci il tarixdə İsmayılovanın gizli kamera ilə çəkilmiş intim görüntüləri internetdə yerləşdirilmişdir[3].

Şübhə yoxdur ki, İsmayılovanın internetdəki fəallığı onu susdurmaq cəhdində müəyyən rol oynamışdır. O, son dərəcə açıq çıxışlar etmiş, ölkədəki korrupsiya barədə materiallar hazırlamış və həmin materiallarda hökumət rəsmilərini cavabdeh olaraq göstərmiş və eləcə də toxunulmaz hesab edilən prezident mövzusunda materiallar hazırlamaqdan çəkinməmişdir. Xədicə İsmayılova prezident Əliyevin davranışı və əlaqədar biznes məsələləri barədə davamlı təhqiqatlar aparmışdır. Azadlıq Radiosu / Azad Avropa Radiosunun Azərbaycan Xidmətində populyar radio proqramlarından birinin aparıcısı qismində fəaliyyətindən əlavə, İsmayılova sosial şəbəkələrdə fəal iştirak edir və öz yazılarını müntəzəm olaraq Facebook vasitəsi ilə yayır. İsmayılova hal-hazırda Facebookda az qala 2000 nəfərlə əlaqə saxlayır. Onların çoxu Azərbaycanla bağlı məsələlərə diqqət yetirən jurnalistlərdən, vətəndaş cəmiyyəti, siyasi fəallar və bloqçulardan ibarətdir. İsmayılovanın araşdırmaları internet vasitəsi ilə geniş auditoriyaya yayılır. Onun Əliyev hökuməti üçün inadkar bir tənqidçi olaraq qalması əsasən internet vasitəsi ilə mümkün olmuşdur.

Bu hadisələr Azərbaycan vətəndaş cəmiyyətində, xüsusən paytaxt Bakı şəhərində və müəyyən qədər də Bakı ətrafındakı qəsəbələrdə internetin ciddi rol oynadığını göstərir. İnternetin rolu ötən 18 ay ərzində əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, ölkə mediasında plüralizmin məhdud olması nəticəsində internet fəallar üçün sürətlə vacib ünsiyyət vasitələrindən birinə çevrilir.

OpenNet İnitiative tərəfindən verilən məlumata görə internet "əsasən birbaşa senzuraya məruz" qalmır[4]. İnternet istifadəçilərinin sayı daim artmaqdadır və bu artım xüsusilə də Bakı şəhərində baş verir. Bundan əlavə, hökumət öz iqtisadiyyatının gücləndirilməsi və biznesin cəlb edilməsi istiqamətində geniş miqyaslı planlarının tərkib hissəsi olaraq telekommunikasiya sektorunu inkişaf etdirmək məqsədi ilə əhəmiyyətli təşəbbüslərin həyata keçirilməsinə başlamışdır. Həmin təşəbbüslərə beynəlxalq biznes ictimaiyyəti tərəfindən investisiya qoyuluşlarının cəlb edilməsi də daxildir.

[1] http://www.eurasianet.org/node/65092

[2] http://www.rferl.org/content/azerbaijan_ismailova_blackmail_rferl_journalists_threats/24509372.html

[3] http://www.article19.org/resources.php/resource/2994/en/azerbaijan:-in-solidarity-with-khadija-ismayilova

[4] http://opennet.net/research/profiles/Azerbaijan

Ölkə əhalisinin təxminən üçdə birinin internetə çıxışı mövcuddur. Bəzi hesabatlara görə əhalinin 27 faizinin internetə çıxışı va[5]. Həmin hesabatlardan birində[6] t qeyd edilir ki, Azərbaycanda 36000-dən çox internet istifadəçisi var. Bundan əlavə, rəsmi rəqəmlərə əsasən ".az" suffiksi ilə qeydiyyatdan keçmiş domen adlarının sayı 13000-dən çoxdur[7]. Azərbaycanın Rabitə Naziri qeyd etmişdir ki, genişzolaqlı internet istifadəçiləri əhalinin 30 faizini təşkil edir. Bununla yanaşı, onların təxminən 90 faizi ancaq dial-up tipli qoşulmadan istifadə edir.

Dinc toplaşmaq azadlığı və birləşmək azadlığının get-gedə məhdudlaşdırılması ilə üzləşən əhali arasında sosial şəbəkələrdə aktivlik daha da populyarlaşmışdır. Məlumatlardan birində qeyd edilir ki, Azərbaycandakı Facebook istifadəçilərinin sayı 500000-dən çoxdur[8]. "Demokratiya üçün şərqi oxu" adlı kampaniyanın Facebook səhifəsi 1500 istifadəçi tərəfindən dəstəklənir. Bu Facebook səhifəsi 2011-ci ildə yaradılmışdır. Həmin Facebook səhifəsinin məqsədi 2012-ci ildə Bakı şəhərində keçiriləcək Avroviziya Mahnı Müsabiqəsinə qədərki dövrdə ölkədəki fikir azadlığı və insan hüquqları barədə məlumatlılığın artırılmasıdır. YouTube və Twitter də get-gedə ölkədə populyarlaşmaqdadır.

Media işçiləri və təhqiqatçı jurnalistlər ciddi şəkildə hədələnmə və hətta zorakılıq risklərinə məruz qalır. Müstəqil media məhkəmə iddiaları ilə təhdid olunur və reklam imkanlarından məhrumdur. Belə olan bir şəraitdə, internet informasiya mübadiləsi və informasiyanın yayılmasında ən əhəmiyyətli üsullardan birinə çevrilmişdir. Bundan əlavə, internet vətəndaş cəmiyyəti kampaniyaları və tədbirlərinin dəstəklənməsinə müsbət təsir göstərir. Buna nümunə olaraq Obyektiv.tv adlı internet səhifəsini göstərmək olar. Belə ki, həmin internet səhifəsi ənənəvi media vasitələrində işıqlandırılmayan xəbərləri təqdim edən etibarlı bir mənbəyə çevrilmişdir. Ötən aylar ərzində həmin internet səhifəsi Avroviziya Mahnı Müsabiqəsinə qədərki dövrdə həyata keçirilən "Bakının gözəlləşdirilməsi" prosesinin tərkib hissəsi olaraq bir çox daşınmaz əmlakın məhv edilməsi hadisələri barədə müntəzəm reportajlar vermişdir. Vətəndaş jurnalistikası bu reportajlarda vacib rol oynamışdır. Belə ki, həmin reportajlarda mobil telefonlar vasitəsi ilə əldə edilən görüntülərdən dəlil kimi istifadə edilmişdir.

Jurnalistlər, fəallar və hökumətə tənqidi münasibət bəsləyənlərin öz səslərini çatdırmaq üçün internetdən istifadə etmələri Azərbaycan hakimiyyət orqanlarına hərtərəfli qaydada məlumdur. Ona görə də, Azərbaycan hakimiyyət orqanları onlayn məzmuna nəzarət və internet fəallarının sıxışdırılması istiqamətində get-gedə daha da aktivləşir. Nəticədə, hökumətin xətti ilə üst-üstə düşməməklə demokratiyaya yönəlik mövqelərin yayılması üçün internetdən istifadə edənlər cəzalandırılmış, həbs cəzalarına məhkum edilmiş və iri məbləğdə cərimələnmişlər.

## Presedentin yaranması

2009-cu ildə iki fəal, Emin Milli və Adnan Hacızadə internetdə satirik video material yerləşdirdikdən sonra xuliqanlıq ittihamları ilə həbs edilmişlər. Bu, hökumətin tənqidi fikirlərə

---

[5] http://www.freedomhouse.org/sites/default/files/inline_images/Azerbaijan_FOTN2011.pdf

[6] http://www.internetworldstats.com/asia/az.htm

[7] http://www.news.az/articles/tech/56036

[8] http://www.news.az/articles/tech/56094

qarşı hədsiz dərəcədə qeyri-tolerant münasibətini ifadə edən hadisələrdən biri olmuşdur. Bundan əlavə, həmin şəxslərin məhkum olunması həm də onu göstərdi ki, hakimiyyət orqanları kampaniyaların həyata keçirilməsi, xəbərlərin yayılması və eləcə də insan hüquqları və fikir azadlığı pozuntuları barədə məlumatların geniş kütlələrə yayılmasında internetin rolu barədə öz məlumatlılığını artırmağa başlayır. Həmin şəxslərə qarşı tətbiq edilən həbs cəzasının ağırlığı (müvafiq olaraq 30 və 24 ay) internet vasitəsi ilə öz səslərini çatdırmaq istəyənlərə qarşı açıq-aşkar bir mesaj idi[9].

2011-ci ilin əvvəllərində, Yaxın Şərq və Şimali Afrikada baş verən etirazlardan sonra, demokratik islahatlar, insan hüquqlarının möhkəmləndirilməsi, ifadə azadlığı hüququnun həyata keçirilməsinə səsləyən nümayişlərin təşkili üçün sosial mediadan istifadə edən fəallar hökumət tərəfindən sıxışdırılmışlar. Nümayişlərin təşkilində iştirak edən gənclərin təhdid edilməsi və həbs olunmasından əlavə[10], polis orqanları bir çox internet fəalını onların Facebookdakı fəaliyyətləri barədə sorğulamışdır. Bu kimi hallar Azərbaycan hakimiyyətinin narahatlıq yaradan yeni strategiyası barədə müvafiq nəticələrə işarə etmişdir.

Hökumətin təzyiqindən əlavə, dövlət tərəfindən fəaliyyəti təşkil olunan bəzi yerli televiziya kanalları da sosial şəbəkələrə qarşı kampaniyalar həyata keçirmişlər. Belə ki, həmin kampaniyalar çərçivəsində psixoloqlar və internet mütəxəssisləri ilə keçirilən müsahibələrdə internet fəaliyyətinin Azərbaycanın imicinə mənfi təsir göstərməsi və ölkənin təhlükəsizliyinə qarşı təhdid təşkil etməsi iddia edilmişdir[11].

Ötən illər ərzində Azərbaycan məhkəmələrinin jurnalistləri və fəalları onların öz peşəkar fəaliyyətləri ilə birbaşa bağlı olmayan ittihamlar əsasında həbsə məhkum etməsi demək olar ki, adi bir hala çevrilmişdir[12]. Bu, jurnalistlər və vətəndaş cəmiyyəti fəallarının diqqətinin öz peşəkar sahələrindən yayınmasına səbəb olur və hakimiyyət orqanlarının tənqidi fikirlərə qarşı düşmənçiliyini pərdələyir. İnternet fəalları və jurnalistlər də bu qaydada hədəfə çevrilmişlər.

## İnternet İdarəçiliyi Forumu

Hökumət ölkənin internet infrastrukturunun yaxşılaşdırılması istiqamətində gördüyü işləri böyük həvəslə təbliğ edir. 2012-ci ilin noyabr ayında 7-ci İllik İnternet İdarəçiliyi Forumunu (İİF) təşkil edən ölkə olaraq Azərbaycan hökuməti heç şübhəsiz ki, texnoloji innovasiyalar sahəsində özünü regionda aparıcı fiqur kimi görür[13]. Bundan əlavə, hökumət müxalif yöndə fəaliyyət göstərən internet səhifələrinin mövcudluğunu Azərbaycanda ifadə azadlığının inkişafının sübutu kimi təqdim edir. Belə ki, Azərbaycanın Böyük Britaniyadakı səfiri Azərbaycan mediasını “fövqəladə dərəcədə fəal media” adlandırmışdır[14].

[9] http://www.article19.org/data/files/pdfs/publications/free-expression-under-attack.pdf, pp. 12-13

[10] Bax: 5-ci Fəsil, “İfadə azadlığı və dinc toplaşmaq azadlığı: qarşılıqlı olaraq güclənən, qarşılıqlı olaraq məhdud”

[11] http://www.rferl.org/content/azerbaijan_activist_prison/2330387.html

[12] Bax: 4-cü Fəsil, ‘İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə’

[13] http://www.itu.int/plenipotentiary/2010/statements/azerbaijan/mammadov.html

[14] http://www.guardian.co.uk/world/2011/may/20/change-azerbaijan-long-before-eurovision

İİF-in Azərbaycanda təşkil olunmasını müdafiə edənlər hesab edirlər ki, bu tədbir demokratikləşdirməni sürətləndirə və internet istifadəçilərinin daha güclü şəbəkə qurmasına kömək edə bilər. Fikir azadlığı tərəfdarları isə bu məsələ ilə əlaqədar Tunisi nümunə göstərirlər. Belə ki, İİF-in əsas dəstəkçilərinin biri Tunis olmuşdur və 2005-ci ildə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti məhz həmin ölkədə keçirilmişdir. Buna baxmayaraq, fəallar, jurnalistlər və həmin dövrdə müxalifətdə olan siyasətçilərin vəziyyəti konfransdan sonra daha da pisləşmişdir. Tədbirin Azərbaycanda keçirilməsinə qarşı olanların əsas arqumenti ondan ibarətdir ki, Azərbaycan sadəcə olaraq demokratik ölkə deyil[15]. Sərhədsiz Reportyorlar Təşkilatı prezident İlham Əliyevi "internetin düşməni" elan etmişdir"[16].

Ölkə üzrə internet infrastrukturuna investisiya qoyuluşuna böyük tələbat vardır. 2010-cu ilin payızında ABTQ tərəfindən verilən məlumata əsasən kənd və şəhər əhalisi arasındakı rəqəmsal uçurum genişdir. Paytaxtdan kənarda yerləşən regionların əlaqələndirilmə səviyyəsi aşağıdır.

2010-cu il üzrə rəsmi statistikaya əsasən, Azərbaycanda yaşayan doqquz milyon əhalinin 36 faizinin internetə çıxışı mövcud olmuşdur. Bu rəqəmin cəmi 19 faizini genişzolaqlı internet təşkil edir. Əksər istifadəçilər dial-up texnologiyasından istifadə edir. Bu isə bir çox hallarda aşağı sürətli və az etibarlı xidmət deməkdir[17]. İnternetə çıxış sahəsində mobil texnologiyadan da istifadə edilir. Azərbaycanda üçüncü nəsil (3G) texnologiyasından istifadəyə 2010-cu ildən etibarən başlanılmışdır[18]. 2011-ci ilin sonlarınadək 3G texnologiyası ölkədə yalnız bir təchizatçı tərəfindən təklif olunurdu. Azad Avropa Radiosu /Azadlıq Radiosunun reportajında həmin şirkətin majoritar səhmdarları prezident Əliyevin ailə üzvləri ilə əlaqələndirmişdir[19]. 2011-ci ildə Azercell şirkətinə 3G xidmətlərinin təmin edilməsi üzrə lisenziya verilmişdir.

Bakı şəhərindən kənarda internetə çıxış məhdud səviyyədədir. Hətta Bakı şəhərində belə, əhatəli infrastrukturun mövcud olmasına baxmayaraq internetdən istifadə xərcləri bəzən məhdudiyyətlərə səbəb olur. Paytaxtdan kənardakı regionlarda infrastruktur o qədər də etibarlı deyil və bir çox insanlar abunə xərclərinin yuxarı olması ucbatından internetdən istifadə edə bilmir[20].

## Seçkilər və internet

İnternetin artan təsiri və eləcə də qlobal səviyyədə internetə çıxışın əhəmiyyətli dərəcədə yaxşılaşması nəzərə alınaraq, 2010-cu ilin noyabr ayında Azərbaycanda keçirilən Parlament Seçkilərində internetin ilk dəfə olaraq effektiv kampaniya vasitəsi kimi istifadə olunduğunu söyləmək mümkündür. Hakim partiya internetdən öz kampaniyasının tərkib hissəsi kimi istifadə etmişdir. Onun kampaniyasında əsas yeri televiziya, Azərbaycanın əsas xəbər və seçki məlumat

---

[15] http://www.freedomhouse.org/report/freedom-world/2011/azerbaijan

[16] http://en.rsf.org/spip.php?page=predateur&id_article=37258

[17] http://www.internetworldstats.com/asia/az.htm

[18] http://www.itu.int/ITU-D/ict/newslog/Azercell+Launches+3G+Services+Azerbaijan.aspx

[19] http://www.azadliq.az/index.php?option=com_content&view=article&id=7305:azerbaijani-presidents-daughters-tied-to-fast-rising-telecoms-firm&catid=347:meqaleen&Itemid=545

[20] http://www.easternpartnership.org/community/debate/republic-facebook-vs-republic-azerbaijan

mənbələri, yerli və eləcə də ölkə miqyaslı qəzetlər tuturdu. Bir çox müxalif siyasətçilər üçün isə, internet yeganə kampaniya vasitəsi olmuşdur. Belə ki, internetdən kampaniya çərçivəsində məlumatların, siyasət və strategiyaların çatdırılması üçün istifadə olunmuşdur. Bundan əlavə, internet fikir azadlığı hüququnun tam olaraq reallaşdırıla bildiyi yeganə məkan olmuşdur. Azərbaycan cəmiyyətinin hüquqları məhdudlaşdırılan təbəqələri sosial şəbəkə saytları və bloqlardan istifadə etməklə cəmiyyət və siyasətin formalaşması kimi mövzularda alternativ fikir mübadiləsi aparmışlar.

**İnternet səhifələrinin bloklanması**

Müəyyən dövrlər ərzində bəzi internet səhifələrinin bloklanması barədə məlumatlar mövcuddur. Lakin hökumət bu növ birbaşa senzuraya ümumilikdə yol verməmişdir[21]. 2010-cu ilin mart ayında Facebook, Yahoo, G-mail və Azad Avropa Radiosu / Azadlıq Radiosunun Azərbaycan Xidmətinin internet səhifələrinin bloklanması barədə məlumatlar mövcud olmuşdur. Bundan əlavə, müxalif qəzetlərdən olan “Azadlıq” qəzetinin internet səhifəsi həmin dövrdə bloklanmışdır. Bəzi ehtimallara görə bu hadisə həmin internet səhifəsinin prezident Əliyevlə bağlı Dubaydakı bəzi biznes əlaqələrini işıqlandırması ilə bağlı olmuşdur[22].

Azərbaycanın biznes və siyasi həyatında şəffaflığın olmaması insan hüquqları və fikir azadlığı uğurunda mübarizə aparanlar üçün əsas narahatlıqlardan biri olmaqda davam edir. Korrupsiya və qeyri-aşkar biznes siyasəti cəmiyyətin əksər hissələri kimi internetə də çox mənfi təsir göstərir. Bundan əlavə, korrupsiya və qeyri-aşkar biznes siyasəti ictimaiyyətin məlumat əldə etmək və hesabatlı idarəçilik hüquqlarının reallaşdırılması üçün qorxu yaradır və eləcə də, inkişaf və mütərəqqi praktikanın təşviqi üçün mühüm rol oynayan sağlam biznes mühitini sıradan çıxarır.

İnternet populyarlaşdıqca, onlayn media ilə məşğul olanlar tətbiq edilə biləcək məhdudiyyətlərə görə daha çox narahatlıq keçirir. Hökumətin siyasətini açıq-aşkar tənqid edən və demokratik islahatları təşviq edən məzmuna yer verən internet səhifələrinin hökumət tərəfindən süzgəclənməsi və bloklanması praktikasına başlanması meylləri var.

Aydındır ki, cəmiyyətdə (siyasət və ölkədəki ifadə azadlığının vəziyyəti ilə bağlı) real dəyişikliklərə nail olunması istiqamətində səy göstərənlər xəbərlərin, təsvirlərin, informasiyanın və kampaniya məlumatlarının daha geniş auditoriyaya çatdırılması məqsədi ilə internetdən get-gedə daha çox istifadə edirlər. Adi vətəndaşlar da yerli hadisələr barədə məlumat mübadiləsinin asan bir üsulu kimi internetdən istifadə etməyə başlamışlar. Bundan əlavə, vətəndaşlar regionda öz zənginliyini və təsirini artırmağa həvəsli olan hökumətin təsirləri nəticəsində baş verən dəyişikliklər barədə də internetdə məlumat mübadiləsi aparırlar. Lakin hökumət xüsusilə də Ərəb Baharından sonrakı dövrdə yaranmış mühitdə onlayn vasitələrin potensial gücü barədə daha çox məlumatlanır və internetdən istifadə və tərkib üzərində daha sərt məhdudiyyətlərin tətbiq ediləcəyinə dair işarələr mövcuddur. Bundan əlavə, internetdən istifadə edənlər həbs və hətta zorakılıq riski ilə get-gedə daha çox qarşılaşırlar. Bu isə, Azərbaycan media sektorunun bir çox sahələrində olduğu kimi qorxu və özünü-senzura mühitinin yaranmasına səbəb olur.

---

[21] http://www.eng.kavkaz-uzel.ru/articles/13149/

[22] http://globalvoicesonline.org/2010/03/10/azerbaijan-confusion-over-internet-problems-with-azadliq-site/

# 9. Mediaya dövlət nəzarəti

## Müəllif: Dominik Tierri, Medianın inkişafı üzrə məsləhətçi, Ümumdünya Qəzet və Yeni Naşirlər Assosiasiyası

Kütləvi informasiya vasitələrinə Azərbaycan hakimiyyət orqanları tərəfindən tətbiq edilən nəzarət 2010-cu ilin sentyabr ayında ABTQ-nin ölkəyə həyata keçirdiyi missiyadan sonrakı dövrdə daha da güclənmişdir. Belə ki, media sahəsində plüralizmə töhfə verən mətbuat vasitələri çox az saydadır.

**Qorxutma və özünü-senzura**

Hakimiyyət orqanları jurnalist və bloqçuların həbsi vasitəsilə onları birbaşa təzyiq altında tutmaq siyasətini davam etdirmişdir. Bu isə onsuz da yüksək səviyyədə olan özünü-senzura mühitini gücləndirmişdir[1]. Jurnalistlər və bloqçulara qarşı qorxutma hallarının araşdırılması sahəsində isə, hücuma məruz qalan media fəalları və jurnalistlərlə bağlı dövlət tərəfindən həyata keçirilən işlər ləng xarakter daşımışdır. Demək olar ki, 2005-ci ildə redaktor Elmar Hüseynovun qətlə yetirilməsindən indiyədək keçən dövr ərzində jurnalistlərə qarşı baş vermiş zorakılıq halları ilə bağlı hər hansı ciddi təhqiqat və ya cinayət təqibi həyata keçirilməmişdir. Öz peşəkar fəaliyyətlərinə görə jurnalistlər və bloqçular həbsdə qalsalar da, tənqidi fikri susdurmaq üçün zorakılıqdan istifadə edənlər azadlıqdadır[2].

Bu uyğunsuz münasibət tərzi tənzimləmə xarakterli xəbərdarlıqlarda da özünü göstərir. Belə ki, müstəqil fəaliyyət göstərən ANS TV "erotik və zorakı məzmun" ehtiva edən və ya azyaşlılara münasibətdə xoşagəlməz hesab edilə bilən proqramların yayımına görə ciddi xəbərdarlıq almışdır. Bununla belə, Natiq Adilov və Qan Tural adlı iki müxalif jurnalistə qarşı 2011-ci ildə həyata keçirilən qaralama kampaniyası çərçivəsində hökumətyönlü Lider TV-də yayımlanan seks materialına görə həmin televiziya kanalına heç bir xəbərdarlıq edilməmişdir[3].

**Yayım mediasına dövlət nəzarəti**

Örtülü üsullar, tənzimləmə, birbaşa mülkiyyət və ya dolayı iqtisadi nəzarət vasitəsi ilə hökumət yayım mediası üzərindəki nəzarətini gücləndirmişdir.

Hökumət, xüsusilə də Prezident Administrasiyası demək olar ki, bütün yayım media vasitələrinə nəzarət edir. Yalnız bir televiziya kanalı, özəl mülkiyyət olan ANS TV qismən müstəqil fəaliyyət göstərir. Bununla yanaşı, ən azı iki dəfə olmaqla ANS TV öz müstəqil yayımında dəyişiklik etməyə məcbur edilmişdir. Belə ki, 2006-cı ilin noyabr ayında həmin televiziya kanalı öz yayımını 18 gün müddətinə dayandırmalı olmuş və 2010-cu ildə keçirilmiş Parlament Seçkiləri barədə efirə verdiyi materiallara görə uzunmüddətli vergi yoxlamalarına məruz qalmışdır[4].

Dövlət büdcəsindən həm AzTV (2011-ci il üzrə 32 milyon AZN) , həm də ictimai kanal olan İTV (2011-ci il üzrə 16.1 milyon AZN) kanallarına iri məbləğdə vəsaitlər ayrılır[5]) Bununla yanaşı, bu hər iki kanal reklam fəaliyyətindən də iri məbləğdə gəlirlər əldə edirlər. Bu kanallardan heç biri öz maliyyə hesablarını indiyədək dərc etməmişlər. İTV üçün abunəçi ödənişlərinin tətbiqi 2014-cü ilədək təxirə salınmışdır[6].

---

[1] Bax: 4-cü Fəsil, "İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə"

[2] Bax: 3-cü Fəsil, "Jurnalistlərə qarşı zorakılığın cəzasız qalması"

[3] Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu, Azərbaycanda Mətbuat Azadlığı: Altı aylıq hesabat, iyul 2011

[4] IREX-in Media Dayanıqlılıq İndeksi 2011

[5] 1 AZN = 0.80 funt sterlinq, 15 mart 2012

[6] http://fes.ge/images/Fes_Files/2011-Publ-AM/web_medialandscapes_eng.pdf

AzTV kanalının baş direktoru Azərbaycan prezidenti tərəfindən vəzifəyə təyin olunur. AzTV kanalı qadağan olunmuş qonaqlar (əsasən siyasi müxalifət) siyahısına malikdir. İTV kanalı isə seçki kampaniyaları zamanı müxalif yayımları nadir hallarda efirə vermişdir. İTV kanalına Parlament tərəfindən seçilən doqquz nəfərlik İdarə Heyəti rəhbərlik edir. İdarə Heyəti üzvlüyünə namizədlərin siyahısı müxtəlif vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət olur. Seçildikdən sonra həmin üzvlər İTV-nin baş direktorunu müəyyənləşdirir. Bununla belə, İdarə Heyətinin səlahiyyətləri 2009-cu ildə azaldılmış və bu da müstəqil media nümayəndələrinin İdarə Heyətinin tərkibindən ayrılması ilə nəticələnmişdir.

Özəl yayım orqanları olan Lider, Space, Azad Azərbaycan və Xəzər TV-nin həqiqi mülkiyyətçilərini müəyyənləşdirmək çətin olsa da, bütün bu kanallar hökumətyönlü xəbərlər yayımlayırlar. 14 regional kanaldan yalnız ikisinin fəaliyyəti peşəkar standartlara uyğun deyil.

## Yayım tənzimləmə orqanının qərəzli fəaliyyəti

Tənzimləmə orqanı olan Azərbaycan Milli Televiziya və Radio Şurası (MTRŞ) tamamilə dövlət büdcəsi vasitəsi ilə maliyyələşdirilir və Şuranın doqquz üzvünün hər biri bilavasitə ölkə prezidenti tərəfindən vəzifəyə təyin olunur.

MTRŞ yayım lisenziyalarının təsdiqlənməsi işində dövlətin lehinə aşkar və qərəzli münasibət nümayiş etdirmişdir. Belə ki, dövlət kanalı olan AzTV Şura tərəfindən təşkil olunan hər iki tenderdə qalib gəlmişdir (İdman və Mədəniyyət kanalları). Bu isə yayımı tənzimləyən qanunun açıq-aşkar pozuntusu deməkdir (Televiziya və Radio Yayımı haqqında Qanunun 15-ci Maddəsi)[7]. MTRŞ hal-hazırda Obyektiv və Kanal 13 adlı müstəqil internet kanallarını öz nəzarəti altına almağa çalışır.

İldə bir dəfə olmaqla, MTRŞ mövcud radio və televiziya tezliklərinin siyahısını dərc etməlidir. Bununla belə, 10 illik fəaliyyəti dövründə MTRŞ həmin tezliklərinin siyahısını bir dəfə də olsun dərc etməmişdir. 2011-ci ilin əvvəllərində Nazirlər Kabineti rəqəmsal yayımın təşkili ilə bağlı müvafiq qərar qəbul etmişdir. Həmin plana əsasən rəqəmsallaşdırmanın birinci mərhələsi olaraq 2012-ci il ərzində Bakı, Gəncə və Naxçıvanın əhatə olunması nəzərdə tutulur. Bununla belə, rəqəmsallaşdırmadan sonrakı dövrdə boşalacaq tezliklər üzrə yeni lisenziyalaşdırma raundu elan edilməmişdir.

Media hüquqları sahəsində çalışan QHT-lər MTRŞ-nin fəaliyyətini izləmək üçün nəzarət tipli təşkilat (Milli Yayım orqanı üzərində Nəzarət Şurası) təsis etmişlər[8].

## Təhrif edilmiş reklam bazarı

Reklam bazarında əsas yeri televiziya tutur. Belə ki, bu sahədə bütün gəlirlərin (2011-ci il üzrə 40 milyon AZN) 75 faizi televiziyanın payına düşmüşdür. Bu isə reklam bazarının təhrif olunmasına işarə edir. Qeyd etmək yerinə düşər ki, digər ölkələrdə televiziyanın reklam bazarındakı payı adətən 55-60 faiz təşkil edir[9].

---

[7] Bax: yuxarıdakı qeyd

[8] İMS Layihə hesabatları – Azərbaycan Media Mərkəzi (AMM)

[9] Zenith Optimedia 2011

Azərbaycan iqtisadiyyatı əsasən dövlət tərəfindən idarə olunan qurumlardan ibarətdir. Belə olan bir şəraitdə, media üçün reklam bazarında mövcud olan resurslar da hökumətə məxsusdur. 2008-ci ildə reklam xərclərinin 40 faizi bank sektoru, 25 faizi isə telekommunikasiya sektoru tərəfindən ödənilmişdir. Bu sektorlar da hökumətin nəzarətindədir[10]. Özəl mülkiyyətdə olan "Azercell" telekommunikasiya şirkəti müxalif qəzetlərdə reklam yerləşdirən müstəsna şirkətdir.

Reklam bazarında təxminən 4.3 milyon AZN qəzet və internet səhifələrinin payına düşür. Yeni Müsavat (ölkə üzrə gündəlik təxminən 10000 tirajla dərc olunan ən iri nəşr) kimi müxalif qəzetlər demək olar ki, reklam fəaliyyətindən hər hansı gəlir əldə etmir. Ən çox satılan 10 qəzet (abunə və pərakəndə) arasında yalnız dövlət mediası reklam gəlirlərindən pay əldə edir. Bu isə media planlaşdırmasının siyasi cəhətdən qərəzli olduğuna işarə edir.

## Çap mətbuatının dövlət mülkiyyətində olması

Ədliyyə Nazirliyində 4200-dən çox çap media qurumu və 50-dən çox xəbər agentliyi qeydiyyatdan keçmişdir. Əslində isə, təxminən 36 gündəlik, 100 həftəlik və 80-dən çox regional qəzet müntəzəm olaraq nəşr olunur. Səksən regional qəzet yerli icra hakimiyyətlərinin orqanları olaraq ayda bir neçə dəfə nəşr olunur. 30 qəzet müəyyən idarələr və ya sənaye qurumları tərəfindən dəstəklənir. 150 qəzet isə Bakı şəhərində fəaliyyət göstərməklə ölkə miqyasında fəaliyyət göstərir.

Qəzetlərin 80 faizi dövlət mülkiyyətindədir.  Hökumət və dövlət qurumları, o cümlədən universitetlər, xəstəxanalar, məktəblər və digər dövlət qurumları həmin qəzetlərə icbari qaydada abunə edilir. Bu isə tirajın 80 faizini əhatə edir (orta hesabla 3000-6000).

Beləliklə, yerdə qalan bir neçə müstəqil və ya müxalif qəzeti boğmaq məqsədi ilə dövlət, əhatə dairəsi və ya oxucu auditoriyası olmayan media vasitələri saxlayır. Müxalif qəzetlər arasında Müsavat Partiyasına məxsus "Yeni Müsavat" qəzetini və Xalq Cəbhəsi Partiyasının "Azadlıq" qəzetini qeyd etmək olar. Populyar müstəqil qəzetlərdən olan "Zerkalo" və rusdilli "Exo" qəzetləri ciddi maliyyə çətinlikləri ilə üzləşirlər. Onlayn medianın get-gedə artan rəqabətliliyi və davam edən maliyyə böhranı 2009-cu ildən bəri tirajın 30 faiz aşağı düşməsinə səbəb olmuşdur. Tirajın aşağı düşməsinin səbəblərindən biri də satış şəbəkəsinin zəif inkişafı ilə bağlıdır[11].

## Çap mətbuatının satışına maneçilik törədən faktorlar

Əhalinin 42 faizinin qəzet köşklərinə çıxışı mövcud deyil. Orta hesabla hər 11250 nəfərə bir pərakəndə qəzet köşkü düşür.  Paylaşdırmanın 70 faizi hökumətin nəzarətinə keçmişdir. Belə ki, regionlarda qəzet satışını Azərmətbuatyayım şirkəti, Bakı və Sumqayıt şəhərlərində isə Qasid şirkəti həyata keçirir.  Bu iki şirkət əsasən hökumət yönlü qəzetlərin satışı ilə məşğuldur[12]. Özəl paylaşdırma şirkəti olan Qayanın bütün köşkləri müsadirə olunmuşdur. 2005-ci ildə həmin köşklərin bərpası barədə verilmiş Prezident fərmanına baxmayaraq, bu köşklər hələ də bərpa olunmamışdır.

---

[10] AMM-nin direktorundan sitat, September 2011

[11] Nəcəf Nəcəfov Maarifçilik və Xeyriyyə Fondu, 2012-ci il hesabatı

[12] http://www.wan-press.org/pfreedom/articles.php?id=5168, WAN-IFRA Azərbaycana Mətbuat Azadlığı Missiyası, 22-24 sentyabr 2009-cu il.

Yeni, standartlaşdırılmış və bəzəkli köşklərin quraşdırılması ilə Bakıdakı köşklərin sayı daha da azaldılmışdır. Vətəndaşların qəzet və əsas qeyri-media satışlarına çıxışını məhdudlaşdırmaq məqsədi ilə həmin yeni köşklərin iş saatları da qısaldılmışdır. Müxalif və müstəqil qəzetlər satış həyata keçirmək üçün küçə satıcılarından asılı vəziyyətə düşmüşlər. Get-gedə artan maneələr satışın daha da aşağı düşməsi ilə nəticələnməkdədir. Məsələn, 10000 tirajla nəşr olunan "Yeni Müsavat" qəzeti 2012-ci ildə gündəlik satışının 1500 nüsxə aşağı düşdüyünü bildirmişdir.

**Dövlət tərəfindən ayrılan subsidiyalar hesabına loyallığın satın alınması**

2005-ci ildən bəri media sahəsində dövlət subsidiyalarının verilməsinə başlanılmış, bu isə bazarın təhrif olunmasına təsir göstərmişdir. Belə ki, 30 qəzet ayrı-ayrılıqda təxminən 2000 AZN məbləğdə subsidiya alır. 2008-ci ildə 38 çap mətbuat vasitəsi ayrı-ayrılıqda 5000 AZN almışdır. 2009-cu ildə isə 39 qəzet ayrı-ayrılıqda 10000 AZN almışdır.

2009-cu ildə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Yardımı Fondu yaradılmışdır. Fondun həmin il üzrə ayrılan büdcəsi 1.3 milyon, 2010-cu il üzrə büdcəsi isə 2 milyon AZN olmuşdur. Azərbaycan mətbuatının 135-ci ildönümü münasibəti ilə 2010-cu ilin iyul ayında jurnalistlərə iri məbləğdə pul mükafatları, medallar və hədiyyələr verilmişdir. Prezident tərəfindən verilən fərman əsasında jurnalistlər üçün yaşayış kompleksinin tikilməsi məqsədi ilə beş milyon AZN məbləğdə fond ayrılmışdır. Beləliklə də, öz evlərini saxlaya bilmək üçün jurnalistlərin şəxsi həyatına birbaşa təsirin mümkünlüyünə şərait yaranmışdır[13].

2011-ci ildə Dövlət Fonduna 2.4 milyon AZN məbləğdə pul ayrılmışdır. Bu məbləğ hesabına hər bir mətbuat vasitəsinə cəmi 20000 AZN verilmişdir. Qəzetlər bu məbləği iki buraxılışdan ibarət olmaqla almışlar.

Mətbuatın inkişafını maliyyə baxımından dəstəkləmək kimi pozitiv bir ideya olan bu təşəbbüs loyallığın satın alınması vasitəsinə çevrilmişdir. Ədalətli və açıq bazarın yaradılmasına kömək əvəzində dövlət fondları dövlət mediasının həyatda qalmasına xərclənmişdir.

Özünü tənzimləmə funksiyasının nüfuzdan salınması

2003-cü ildə yaradılan və özünü tənzimləmə qurumu kimi fəaliyyət göstərən Milli Mətbuat Şurası üzvlük əsasında fəaliyyət göstərir və Əxlaq Kodeksinin pozuntuları üzrə monitorinq həyata keçirir. Bu qurum ötən il ərzində 100 media qurumunun "qara siyahısını" dərc etmişdir. Həmin siyahıya daxil olan mətbuat vasitələri "vətəndaşlar və şirkətlərdən hədələmə yolu ilə pul əldə edən reket jurnalistlər" və korrupsiyaya uğramış mətbuat vasitələri kimi təsvir edilmişdir. Mətbuat vasitələrinin belə əməlləri defamasiyanın cinayət məsuliyyəti yaratmasına əsas verən qanunun saxlanmasında hökumət tərəfindən istifadə edilən arqument ATƏT-in dəstəyi ilə defamasiyanın cinayət məsuliyyəti yaradan əməllər siyahısından çıxarılmasını təmin edən qanunun Parlamentdə qəbul olunmasına nail olmuşdur.

Mövcud olduğu 9 il ərzində müstəqil mətbuatın zəifləməsi və üzvlərinin sayının azalması nəticəsində Milli Mətbuat Şurası öz təsirini itirmişdir. 2011-ci ildə Şura Əxlaq Kodeksinin pozuntusuna yol verən nəşrlərin dayandırılmasına imkan verən əlavə səlahiyyətlər əldə etməyə səy göstərmişdir. Şura sədrinin həm də Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin (Nyu Yorkda yerləşən təşkilatla əlaqəsi

[13] http://fes.ge/images/Fes_Files/2011-Publ-AM/web_medialandscapes_eng.pdf

yoxdur) sədri olmasını nəzərə alaraq, bu təşəbbüsdən sonra Şuranın daha da etibarsızlaşmasını söyləmək olar. 2010-cu ilin dekabr ayının sonlarında Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi prezident Əliyevi "Jurnalistlərin Dostu" elan etmişdir. Bu isə həmin mükafatın ötən ilki qalibi olan müxalifət liderinin öz mükafatını geri qaytarmasına səbəb olmuşdur.

İnternetə çıxışın məhdudlaşdırılması

İnternet təchizatı dövlət inhisarındadır. Bu isə doqquz milyonluq əhalisi olan ölkədə internet istifadəçilərinin sayının cəmi 2,420,000 nəfər olması ilə nəticələnir.

Dövlət tərəfindən idarə olunan "Delta Telecom" 30 yerli provayderə malik olmaqla internet təchizatında öz inhisarçı mövqeyini qoruyub saxlayır.  Bu şirkət daha iri tutum və daha sürətli çıxışı məhdudlaşdırır və abunə qiymətlərini yuxarı səviyyədə saxlayır. 2010-cu ilin ortalarında QHT-lər tərəfindən görülən işlər nəticəsində qiymətlər yarıbayarı aşağı düşmüşdür. Lakin regionlarda qiymətlər hələ də yuxarı səviyyədədir və keyfiyyət aşağı düşmüşdür[14].

Tutum və keyfiyyətli çıxışın məhdudlaşdırılması həqiqi müstəqil azadlığın sonuncu sahəsi olan onlayn xidmətlərin inkişafına maneçilik törədir. Öz mövcudiyyətini qoruyub saxlaya bilmiş yeganə müstəqil xəbər agentliyi olan Turan və eləcə də təxminən 10 internet televiziya və radio kanalı onlayn rejimdə fəaliyyət göstərir. Beləliklə də, internet hadisələr barədə həqiqətlərin çatdırılması üçün yeganə vasitə olaraq qalır.

Bloqçuların sıxışdırılmasından əlavə, "Azadlıq" qəzeti kimi bir neçə internet səhifəsi və internet radio saytı ölkə mənşəli kiber hücumlara məruz qalmışlar[15].

---

[14] IREX Media Dayanıqlılıq İndeksi 2011

[15] Bax: 8-ci Fəsil, "İnternetdə fikir azadlığı"

# 10. Mətbuatda əxlaq qaydaları, peşəkarlıq və özünü tənzimləmə

Müəllif: Adrien Kolin, Layihə işçisi, Beynəlxalq Jurnalistlər Federasiyası[1]

## Əxlaq Kodeksi

2010-cu ilin sentyabr ayında ATƏT-in Bakı Ofisi, Azərbaycan Mətbuat Şurası ilə birlikdə Azərbaycan jurnalistləri üçün Əxlaq Kodeksinin yeni versiyasını dərc etmişdir[2].

Yeni sənəddə əsas diqqət dörd prinsipə yönəldilmişdir: a) həqiqətə, dəqiqliyə və obyektivliyə xidmət etmək, b) informasiya mənbələrinə hörmətlə yanaşmaq, c) şərəf və layaqəti, şəxsi toxunulmazlığı müdafiə etmək, c) jurnalistləri və onların çalışdığı təşkilatları qorumaq.

Əxlaq Kodeksinin dərc olunmasından 15 ay keçməsinə baxmayaraq, Azərbaycan mediasındakı əsas etik problemlər qalmaqdadır. Kodeksin yayılması istiqamətində göstərilən səylərə baxmayaraq, həmin sənəddəki müddəaların monitorinqi, bu normalar üzrə təhsil və təlim işlərinə daha ciddi resurslar cəlb edilmədikcə onların hamılıqla qəbul edilməsi ağlabatan görünmür.

Mətbuat Şurası Kodekslə bağlı məsələlərdə strateji rol oynayır. Şura çərçivəsində Şikayətlər üzrə Komissiyanın bir neçə il bundan əvvəl təsis olunmasına baxmayaraq, həmin Komissiya hələ də təəssüf ki, bağlı qapılar arxasında fəaliyyət göstərir və öz qərarlarını dərc etməkdən imtina edir. Şəffaflığın olmaması Komissiyanın etibarlılığına ciddi zərər vurur. Bu da öz növbəsində özünü tənzimləmə qurumu olaraq Mətbuat Şurasına olan ictimai etimadı daha da azaldır. Mediada və Mətbuat Şurasının daxilində mövcud olan siyasi təsir onun jurnalistlər və media təşkilatları arasındakı nüfuzunu daha da azaltmışdır. Bu isə Mətbuat Şurasının hökumətin nəzarət vasitələrindən biri kimi qəbul edilməsinə gətirib çıxarmışdır.

Mətbuat Şurası yeni kodeksə əməl etməyən media təşkilatlarının qara siyahısının tərtib edilməsi ilə də məşğul olmuşdur. Bu da öz növbəsində özünü tənzimləmə orqanı ilə jurnalistika arasında əlavə ziddiyyətlərin yaranmasına gətirib çıxarmışdır. Media təşkilatlarının qara siyahıya alınması ifadə azadlığının məhdudlaşdırılması vasitəsi olaraq görülür. Bununla belə, bir çoxları jurnalistikanın tənzimlənməsi üçün ən yaxşı vasitə olaraq hələ də Mətbuat Şurasını qəbul edir. Bununla yanaşı hesab edilir ki, Mətbuat Şurasının öz etibarlılığını bərpa etməsi üçün əsaslı dəyişikliklər tələb olunur.

## Medianın peşəkarlığı

Peşəkarlıq və etika Azərbaycan mediası üçün əsas çətinliklərdən biri olaraq qalır. Mətbuat Şurası ilə bağlı problemlərə baxmayaraq, əksər müsahiblər ötən illər ərzində etik standartlar və peşəkar davranışda ümumi irəliləyişlərin baş verdiyini qeyd etmişlər. Onlar bu irəliləyişləri bu mövzularda jurnalistlər üçün təşkil edilmiş çoxsaylı təlimlərlə əlaqələndirmişlər. Gələcək irəliləyişlərin hərəkətverici qüvvələrindən biri kimi, daha keyfiyyətli jurnalistika tələb edən yetkin ictimai tələbatın zəruriliyi qeyd edilmişdir.

İrəliləyişlərə baxmayaraq, jurnalistlər hələ də öz cavabdehliklərini yerinə yetirmək üçün tələb olunan zəruri sərbəstliyə malik deyil. Ağır siyasi və inzibati müdaxilə Azərbaycan jurnalistikasının

[1] Bu fəsil Beynəlxalq Jurnalistlər Federasiyası tərəfindən, “Azərbaycanda etik jurnalistika təşəbbüsü” adlı hal-hazırda davam etməkdə olan layihə çərçivəsində toplanan məlumatlara əsaslanır

[2] http://www.osce.org/baku/72214

əsas xüsusiyyətlərindən biri olaraq qalmaqdadır. Bu isə ölkədə jurnalistikanın ümumi keyfiyyətinə mənfi təsir göstərir.

Jurnalistlər və redaktorlar hökumət və ya müxalif siyasi partiyalar da daxil olmaqla, öz siyasi sponsorlarına həddən artıq yaxınlıq nümayiş etdirirlər. Bir çoxları hesab edir ki, çalışdıqları mətbuat qurumundan asılı olmayaraq onlar jurnalist fəaliyyətində oxşar məhdudlaşdırma formaları ilə üzləşirlər. Bu həm müxalif, həm də hökumət tərəfdarı olan mətbuat üçün keçərlidir.

Peşəkar jurnalistlərin həqiqət barədə müstəqil və obyektiv xəbərçi olaraq qəbul edilmələri vacibdir. Bu zaman onlar hansısa siyasi maraqla əlaqələndirilməməlidirlər.

Redaktor müstəqilliyi və peşəkar standartlarla bağlı mediada çatışmazlıqlar mövcuddur. İctimaiyyətin siyasi debatlarda iştirakını təmin etmək üçün bu iki keyfiyyətin mövcudluğu zəruridir. Həmin bu iki keyfiyyət demokratik proseslərin gücləndirilməsi və eləcə də siyasi mövzularda məlumatlı ictimai debatın təşkil edilməsi üçün zəruri olan informasiyanın ictimaiyyət və hökumət rəsmilərinə çatdırılması baxımından müsbət rol oynayardı.

**İş şəraiti**

Gündəlik işə ciddi siyasi müdaxilələrdən əlavə bir çox jurnalistlərin işləməyə məcbur qaldığı acınacaqlı şərait zəif etik standartların əsas səbəblərindən biridir. 2010-cu ildə ABTQ-nin Azərbaycanda həyata keçirdiyi missiyadan sonrakı dövr ərzində jurnalistlərin üzləşdiyi ağır əmək şəraitində azacıq irəliləyişlər baş vermişdir. Müvafiq tələblərə cavab verən əmək müqavilələrindən istifadə ilə bağlı jurnalist birliklərinin işəgötürənlərlə apardığı işlər ciddi nəticələrə səbəb olmamışdır. Əmək müqavilələrindən istifadə olunsa da, bir çox hallarda jurnalistlərə verilən əmək haqqı rəsmi minimum əmək haqqı səviyyəsində olur. Vergidən yayınmaq məqsədi ilə işəgötürənlər jurnalistlərə rəsmi minimum əmək haqqı verirlər. Bundan sonra isə onlar jurnalistlərə sənədləşməyən olmayan əlavələr verirlər.

Bu və bu kimi praktika jurnalistikada korrupsiya şəraiti yaradır və belə praktikanın dayandırılması üçün jurnalistlər və işəgötürənlər daha çox çalışmalıdırlar. Əmək Nazirliyinin əmək qanunlarını tətbiq etməməsi minlərlə jurnalistin pensiyaya çıxdıqdan sonra aşağı pensiya alması ilə nəticələnəcək.

İşəgötürənlər bir çox hallarda işçilərin maaşlarına “qəhvəyi zərf” sistemi vasitəsi ilə əlavələr verirlər. Jurnalistləri siyasi məqsədlərə uyğun müəyyən mövzularda yazı yazmağa məcbur etmək üçün bu üsuldan geniş istifadə edilir. Jurnalistlərin öz redaktorlarından və onların verəcəyi qərarlardan asılı olduğunu nəzərə alsaq, üstüörtülü maaş praktikasından həm də etik standartları zəiflədən effektiv bir vasitə kimi istifadə edildiyini söyləmək olar. Jurnalistlərin nöqteyi-nəzərindən baxsaq, redaktorun qərarı əleyhinə çıxış etmək onların aylıq gəlirinə birbaşa təsir göstərir.

Jurnalistlərin aşağı və qeyri-sabit maaş aldığı və işlə təminatın stabil olmadığı bir şəraitdə işləməsini nəzərə alaraq, yüksək peşəkar və etik standartların inkişaf edəcəyini gözləmək sadəlövhlük olardı. Bundan əlavə, jurnalistlərin şəxsi iradə əsasında işə götürülməsi və işdən çıxarılmasının mümkün olduğu bir şəraitdə onların işəgötürənlərdən peşəkar müstəqilliyə hörmət tələb etmələri mümkün deyil.

Peşəkarlıq müstəqil və müxalif medianın maliyyə vəziyyətinin yaxşılaşması ilə sıx bağlıdır. Azərbaycandakı bir çox müstəqil və müxalif mətbuat vasitələri maliyyə baxımından dayanıqlı deyil. Bu əsasən hakimiyyət orqanlarının reklam verənlərə qarşı tətbiq etdiyi təzyiqlə bağlıdır. Eyni zamanda, reklamverənlər təzyiqlərə məruz qalacağı qorxusu ilə belə qəzetlərə reklam verməkdən çəkinirlər. Bu da öz növbəsində həmin mətbuat vasitələrinin çox aşağı səviyyədə reklam gəlirləri əldə etməsi ilə nəticələnmişdir. Maliyyə məhdudiyyətlərinin digər səbəbləri arasında reklam bazarının həcminin kiçik olmasını və çap mətbuatının aşağı tirajla fəaliyyət göstərdiyini qeyd etmək mümkündür. Bu sahədə hər hansı irəliləyiş qeydə alınmamışdır.

**İslahat zərurəti**

Azərbaycandakı jurnalistika ictimaiyyəti qeyd edir ki, zəruri media islahatları və peşəkar jurnalistikanın inkişafı yalnız bütün media tərəflərinin iştirakı ilə və sektor tərəfindən hərəkətə gətirilən təşəbbüslər vasitəsi ilə mümkündür.

Bunun baş verməsi üçün sektor üzrə işçi qrup təsis edilməli və həmin işçi qrupa ölkə üzrə media islahatlarını həyata keçirmək səlahiyyəti verilməlidir. İşçi qrupa sektorun bütün əlaqədar tərəfləri cəlb edilməlidir: işəgötürənlər, redaktorlar, jurnalistlər, jurnalist birlikləri, media QHT-ləri və Mətbuat Şurası. Bu qurum gələcək dövrlər üzrə uzunmüddətli media islahatlarının strategiyalarını müəyyənləşdirməlidir. Qurumun işinə həm də aşağıdakılar daxil edilməlidir: redaktor müstəqilliyi və redaksiya nizamnamələrinə dair qaydalar, özünü tənzimləmə vasitələri, plüralist və strukturlaşdırılmış media mülkiyyətçiliyi və eləcə də beynəlxalq standartlara uyğun iş şəraiti.

# 11. Azərbaycanın nüfuz problemi

## Müəllif: Mayk Haris, Təşviqat şöbəsinin rəhbəri, İndex on Censorship

Azərbaycan hökuməti və ona bağlı olan qurumlar ölkəni müasir, gələcəyə istiqamətlənən və çoxmilli şirkətlər üçün investisiya imkanlarının mövcud olduğu bir dövlət kimi təqdim etmək uğrunda ciddi səylər göstərirlər. Contact adlı internet jurnalına əsasən, 2011-ci il üzrə Azərbaycanı təşviq etmək üçün hökumətin ayırdığı büdcə 280000000[1]. ABŞ dollarına qalxmışdır. Bu sahədə xərclənən faktiki vəsaitlərin bundan da çox olduğu ehtimal edilir. Belə ki, ölkənin ən varlı şəxslərindən olan Kəmaləddin Heydərov kimi rejim tərəfdarları Avropa Azərbaycan Cəmiyyəti (TEAS) kimi dövlət-təşviqat qurumlarına sponsorluq edirlər.

Azərbaycan hökuməti Avropa Şurasının siyasi orqanı olan AŞPA-nın rəyinə təsir etmək üçün xüsusi səylə çalışır. AŞPA keçmiş Sovet İttifaqı dövlətləri ilə Avropa İttifaqı dövlətləri arasında körpü rolunu oynayır. AŞPA-nın bu rolunun vacibliyi nəzərə alınaraq, bu qurumun parlament üzvlərinin davranışı və etik mövqeyini tənzimləyən qaydaların mövcud olmaması narahatlığa əsas verir. Məsələn, üzvlərdən maraqlarının yazılı olaraq bəyan edilməsi tələb olunmur. Debatlar zamanı üzvlərin öz maraqlarını şifahi qaydada bəyan etmələri kifayətdir. Qurumun Avropadakı 47 üzv dövlətindən yalnız 4 dövlət üzərində lobbi fəaliyyətinə dair hüquqi məhdudiyyətlər mövcuddur. AŞPA-nın Siyasi Məsələlər Komitəsinin keçmiş sədri Goran Lindbald belə lobbiçilərdən biridir. Əvvəllər Ermənistan üzrə həmməruzəçi kimi fəaliyyət göstərmiş Lindbald İsveç parlamentinə keçirilən növbəti seçkilərdə məğlub olduqdan sonra TEAS tərəfindən “müqavilə ilə çalışan lobbiçi” qismində cəlb edilmişdir. Ermənilər onun qərarını “rüsvayçılıq” kimi təsvir etmişlər. Sonrakı dövrlərdə Lindbald malik olduğu giriş kartından AŞPA binasına daxil olmaq üçün istifadə etmiş və TEAS üçün çalışmasına baxmayaraq, siyasi qruplardan biri üçün təşkil edilən şam yeməyi tədbirində əvvəlki həmkarları ilə birlikdə iştirak etmişdir. Onun təsirləri nəzərəçarpacaq dərəcədə güclüdür[2].

AŞPA-nın digər nümayəndəsi, Almaniyadan olan deputat Eduard Linter də Azərbaycanın maraqları üçün lobbiçiyə çevrilmişdir. Linter 2002-2005-ci illər ərzində AŞPA-nın Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsinin sədri olmuşdur. Bundan əlavə o, AŞPA-da Üzv Dövlətlərin Öhdəlik və Cavabdehliklərinə Əməl etməsi üzrə Komitənin üzvü olmuşdur. Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı Avropa Şurasının hesabatlarında oynadığı rol nəticəsində Berlində yerləşən Almaniya-Azərbaycan Münasibətlərinin İnkişafı Cəmiyyəti onu işə götürmüşdür. Bu cəmiyyət də Azərbaycan tərəfindən maliyyələşdirilir. “Der Spiegel” qəzetinin verdiyi məlumata görə Linter həmin Komitənin digər üzvlərinin Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyəti sərt tənqid etməsi, özünün isə “(Azərbaycandakı vəziyyəti) dəstək yolu ilə yaxşılaşdırmaq” mövqeyində olması nəticəsində Komitədən istefa vermişdir[3]. İnsan hüquqları sahəsində fəaliyyət göstərən qruplar, o cümlədən ABTQ debatlar zamanı Azərbaycanın davranışları ilə bağlı məsələləri qaldırmaqda çətinliklərlə üzləşmişlər. Bundan əlavə, AŞPA-dan istifadə etməklə Azərbaycanın insan hüquqları sahəsindəki öhdəlikləri ilə bağlı məsələlərin qaldırılması çətin olmuşdur.

Azərbaycanın Avropa Şurası daxilində malik olduğu təsir onun qaydalardan yayınmasına imkan verir. Azərbaycanda siyasi məhbuslarla bağlı vəziyyəti yoxlamaq vəzifəsi verilmiş Xüsusi Məruzəçi, Almaniyanın AŞPA-dakı deputatlarından olan Xristof Strasser Azərbaycanda fakt

---

[1] http://www.contact.az/docs/2011/Social/122113200en.htm

[2] Müstəqil Baxış, “Çarəsizlik Şurası”, 16 avqust 2011

[3] http://www.spiegel.de/international/world/0,1518,806769,00.html

araşdırma missiyasını həyata keçirə bilmək üçün müraciət etsə də, ölkəyə daxil ola bilmək üçün ona lazım olan vizanın verilməsindən imtina edilmişdir[4]. Viza verilməsindən imtina Alman parlamentarilərinin ciddi narazılığına səbəb olmuş və Bundestaqın İnsan Hüquqları və Humanitar Yardım məsələləri üzrə Komitəsi Strasserə viza verilməsi tələbi ilə qətnamə qəbul layihəsi hazırlamışdır. Azərbaycan hökumətinin Almaniyadakı təsiri o qədər güclüdür ki, həmin qətnamə layihəsi Azərbaycanın Almaniyadakı səfirinə sızdırılmışdır (aşağıda bu barədə məlumat verilir)[5].

**Avropa Azərbaycan Cəmiyyəti**

Londonda yerləşən TEAS təşkilatı Avropada ən çevik və ən yaxşı maliyyələşdirilən lobbiçilik əməliyyatlarından biridir. Təşkilatın sədri Kəmaləddin Heydərovun oğlu Taleh Heydərovdur. ABŞ səfirliyinin Vikileaks tərəfindən sızdırılan teleqramlarından birinə əsasən Kəmaləddin Heydərov “prezidentdən də güclüdür... . Heydərov ölkə daxilində prezidentlə müqayisədə daha çox görünən sərvətə nəzarət edir”[6]. Sızdırılmış diplomatik teleqramda Heydərovun öz güc şəbəkəsini necə qurması təsvir edilir (Dövlət Gömrük Komitəsinin sədri olduğu vaxtdan cari vəzifəsi olan Fövqəladə Hallar Naziri olanadək). Heydərovun rəhbərlik etdiyi quruma zenit batareyasına malik olan yarım-hərbi birləşmə və ölkədə həyata keçirilən istənilən tikinti layihəsini “təhlükəlilik” kimi səbəblərlə dayandırmaq səlahiyyəti olan inşaat mühəndisləri idarəsi daxildir. Onun mülkiyyətinə şəxsi Airbus A319 təyyarəsi də daxildir. Vikileaks teleqramında Heydərov ailəsinin malik olduğu şirkətin strukturu təsvir edilir. Qeyd edilir ki, “ailənin bir çox əməliyyatları “Gilan”, “Qəbələ”, və ya “Birləşmiş Beynəlxalq Şirkətlər” kimi qruplar tərəfindən həyata keçirilir. Bu şirkətlər tikinti, turizm, bank kimi sahələrdə çalışır və təbii şirə bazarı üzərində inhisarçı nəzarətə malikdirlər.” Bütün bu şirkətlər TEAS kimi eyni ünvanda qeydiyyatdan keçmişdir. TEAS Birləşmiş Beynəlxalq Şirkətlər adlı biznes qurumunun filialı kimi təsvir edilir.

Azərbaycanda ciddi insan hüquqları pozuntularının hamıya məlum olduğu bir şəraitdə Britaniya deputatları Britaniyada lobbiçilik fəaliyyəti göstərən və eləcə də deputatlar üçün “fakt araşdırma missiyaları” təşkil edən istənilən qurumun məqsədəuyğunluğu barədə düşünməlidirlər. Lakin bununla belə, Britaniya deputatlarından Mark Field TEAS xətti ilə 6000 Böyük Britaniya funt sterlinqi dəyərində iki səfər həyata keçirmişdir. 2011-ci ilin may ayında onun iştirak etdiyi səfərə həm də digər deputatlar Bob Blekman, Stefen Hamond və eyni zamanda Əmək Partiyasının keçmiş idman naziri olmuş Qeri Sutklif də qatılmışdır. TEAS hər bir parlamentari üçün 3500 funt sterlinq xərcləmişdir[7].

Mark Field həm Cənubi Qafqaz regionu ilə bağlı mədəni, iqtisadi, diplomatik və siyasi məsələlərdə TEAS-a saatı 166 funt sterlinq dəyərində “məsləhətçi” xidməti göstərir. Field öz şəxsi internet səhifəsində “Sky Digital” şirkətindən əldə etdiyi vəsaitləri deputat kimi çəkdiyi xərclər və şəxsi büdcəsi arasında necə bölüşdürdüyü barədə cəmi 122 sözdən ibarət yazı yerləşdirsə də, həmin yazıda TEAS-dan əldə etdiyi gəlirlər barədə bir kəlmə də olsun deyilmir. Belə ki, Field yalnız 2012-ci il ərzində TEAS-dan əldə etdiyi gəlirləri 5000-10000 funt sterlinq

---

[4] Bax: 4-cü Fəsil: “İfadə azadlığını boğmaq üçün qanundan siyasi məqsədlərdə istifadə”

[5] http://www.spiegel.de/international/world/0,1518,806769,00.html

[6] http://www.guardian.co.uk/world/us-embassy-cables-documents/250614

[7] http://www.thebureauinvestigates.com/2011/08/29/questions-over-mps-all-expense-paid-trip-to-azerbaijan/

səviyyəsində təxmin etmişdir[8]. 2011-ci lin sonunda Böyük Britaniya Parlamentinin Təmsilçilər Palatasının gündəliyinə daxil edilməsi üçün bir layihə müzakirəyə çıxarılmışdı. Həmin layihədə Azərbaycanın Sovet İttifaqından müstəqilliyinin 20-ci ildönümü münasibəti ilə təbrik edilməsi təklif edilirdi[9]. Layihənin ilkin sponsorlarından biri istisna olmaqla, hamısı TEAS tərəfindən təşkil olunan ödənişli səfərlərdə iştirak etmiş deputatlardan ibarət olmuşdur. Taleh Heydərov Böyük Britaniyada təsir gücünə malikdir. 2009-cu ildə, Gloucestershireda yerləşən Beaufort Polo Klubunda onun şahzadə Uliam və şahzadə Herry ilə tanışlığı təşkil edilmişdir. TEAS-da Britaniya siyasət təsisatının nüfuzlu peşəkarları çalışır. TEAS-ın əsas lobbiçilərindən biri olan Lionel Zetter Parlament Monitorinq Xidmətinin keçmiş icraçı direktorlarından biridir. O, həm də hər bir seçilən parlamentari haqqında məlumat buraxılışlarının müəllifidir[10].

## Almaniya

Azərbaycan tərəfindən Almaniyada da ciddi lobbiçilik əməliyyatları həyata keçirilir. Azərbaycan hökuməti Berlində yerləşən Konsultum Communications adlı ictimai münasibətlər şirkətini bu işə cəlb etmişdir[11]. Bu şirkətin direktoru Hans-Erix Bilges Almaniyanın ən yüksək tirajlı qəzeti Bildin keçmiş redaktorudur. Həmin şirkət Belarus və Qazaxstanın avtoritar hökumətlərinə də məsləhət xidmətləri göstərmişdir.

29 sentyabr 2011-ci il tarixdə Azərbaycanın 20 illik müstəqilliyinin qeyd olunması münasibəti ilə Almaniyada təntənəli tədbir təşkil edilmişdir. Berlinin Alman Tarix Muzeyində təşkil edilən həmin tədbirdə Almaniyanın həmin dövrdəki prezidenti Xristian Vulfun xanımı, keçmiş Xarici İşlər naziri Hans-Dietrix Genşer (1982-1992) və əvvəlki İqtisadiyyat naziri Maykl Qlos (2005-2009) da daxil olmaqla siyasi səhnənin görkəmli şəxsləri iştirak etmişdir. Sonuncu iki şəxs həm də Konsultum şirkətinin İdarə Heyətinin üzvləridirlər.

Bu tədbirlə bağlı Almaniya hökumətinin İnsan Hüquqları üzrə müvəkkili Markus Löninq qeyd etmişdir ki: “Mən (həmin tədbirdə) iştirak etməzdim.” Almaniyalı deputatlardan Marina Şuster razılaşaraq bildirmişdir ki: “Azərbaycanın buradakı davranışı az qala həyasızlıqdır. Bu növ lobbiçilik qəbul edilən çərçivədən kənara çıxır”[12].

Azərbaycan hökuməti TEAS-ın fəaliyyətini Almaniya nümunəsində təkrarlayaraq Alman deputatlardan biri Viola von Cramon tərəfindən “yarı-akademik” kimi təsvir edilən səfərlərə dəvət edir. 2011-ci ilin sentyabr ayında Karl Georq Velman və Stefan Libix də daxil olmaqla, bir qrup Almaniya siyasətçisi Azərbaycana səfər etmişlər. Onların bu səfəri biznes sinifdə səyahət, lüks mehmanxanada qalmaq, təntənəli şam yeməyi tədbiri və prezident Əliyev tərəfindən edilən çıxış kimi xüsusiyyətlərə malik olmuşdur[13].

---

[8] http://www.markfieldmp.com/

[9] http://www.parliament.uk/business/publications/business-papers/commons/early-day-motions/edm-detail1/?session=2010-12&edmnumber=2204

[10] http://www.telegraph.co.uk/news/worldnews/wikileaks/8299344/WikiLeaks-William-Harry-and-the-Abramovich-of-Azerbaijan.html

[11] http://www.handelsblatt.com/politik/international/auf-investorensuche-oh-wie-schoen-ist-aserbaidschan/6125260.html

[12] http://www.spiegel.de/international/world/0,1518,806769,00.html

[13] Bax: əvvəlki qeyd

Təşviqat kampaniyası “Bakı” adlı moda-incəsənət jurnalı vasitəsi ilə də aparılır. Bakı jurnalının redaktoru Azərbaycan prezidentinin böyük qızı Leyla Əliyevadır. Jurnal Conde Nast tərəfindən nəşr olunur. İlkin redaksiyasında 20000 tirajla dərc olunan bu jurnal Böyük Britaniya, Fransa və ABŞ-da görkəmli yerlərdə yayılır[14]. Jurnalın maliyyələşdirilməsi o dərəcədədir ki, həmin jurnal xüsusi hazırlanmış fontla dərc olunur[15]. Tiffay Co, Dior, Bvlgari (bütün bu markaların Azərbaycanda filialları fəaliyyət göstərir) kimi lüks markalardan aldığı reklamlar, qrafiti sənətçilərinin işləri və son dərəcə innovativ mədəniyyət mövzularında yazılan məqalələr qərb dəyərlərini əks etdirən plüralist Azərbaycan barədə güclü təəssüratlar yaradır.

Azərbaycan törətdiyi insan hüquqları pozuntularının gizlədilməsi üçün ciddi səy və resurslar sərf edir.  Azad mətbuatın mövcud olmaması və ya siyasi məhbusların varlığı kimi məsələlərə xüsusi əhəmiyyət verilməsinin yersizliyi və ya bu problemlərin davam edən Dağlıq Qarabağ konflikti kontekstində labüdlüyünə digər ölkələrin parlamentarilərini inandırmaq üçün Avropa Şurası və milli hökumətlər səviyyəsində ciddi lobbiçilik fəaliyyəti həyata keçirilmişdir. Həqiqətin bu qaydada təhrif olunması insan hüquqları müdafiəçilərinin işini daha da çətinləşdirir. Lakin hökumətin və onun tərəfdarlarının istifadə etdiyi metodların vurğulanması vasitəsi ilə vətəndaş cəmiyyəti belə hallarla daha effektiv mübarizə apara bilər.

---

[14] http://www.mediaweek.co.uk/news/1077517/CondE-Nast-publish-international-edition-Baku-magazine/

[15] http://www.swisstypefaces.com/type-services/exclusive-typefaces/baku-international/

# 12. Yekun

Bu hesabatda tədqiq edilən tendensiyaların nəticəsi olaraq belə bir qənaətə gəlmək olar ki, ifadə azadlığı ilə bağlı Azərbaycanın beynəlxalq öhdəlikləri və bu azadlığın praktikada qorunması vəziyyəti arasında dərin boşluq var. Hökumətin yaratmağa çalışdığı aldadıcı imiclə ölkədəki reallıq bir-birindən tamamilə fərqlənir. Bu uçurum get-gedə daha da dərinləşir və belə olan bir şəraitdə Azərbaycanda maraqları olan beynəlxalq aktyorların ölkədə baş verənləri görməməzliyə vurmaları artıq mümkün deyil.

Azərbaycan jurnalistləri, insan hüquq müdafiəçiləri və siyasi fəallarla müzakirələr zamanı tez-tez qoyulan suallardan biri də Avroviziya Mahnı Müsabiqəsindən sonrakı dövrdə nələrin baş verəcəyidir.  Beynəlxalq mətbuatın diqqətinin ölkəyə yönəldiyi bu qısa müddət ərzində Azərbaycan haqqında həqiqətləri çatdırmaq uğrunda çalışanlar beynəlxalq diqqətin azalacağı dövrdən sonra başlarına gələ biləcək hadisələrdən narahatlıq keçirirlər.  Bu şəxslərdən bəziləri artıq hakimiyyət orqanları tərəfindən hədəf seçilmişdir və bu da yuxarıda ifadə olunan narahatlığın yaranmasına əsas verir.

ABTQ ümid edir ki, Azərbaycanda ifadə azadlığı ilə bağlı vəziyyətin monitorinqi ilə məşğul olan beynəlxalq ictimaiyyət öz səylərini bu hesabatın buraxıldığı dövrdən sonrakı dövrdə ikiqat artıracaq.  Bundan əlavə ümid edilir ki, beynəlxalq ictimaiyyət həm yaxın, həm də geniş perspektivdə hakimiyyət orqanlarından öz əməllərinə görə cavabdehlik tələb edəcək.  Bu hesabatda qaldırılan məsələlərə ardıcıl diqqətin yetirilmədiyi və Azərbaycanda müstəqil fikirlərin dəstəklənmədiyi bir şəraitdə həqiqət nadir rast gəlinən bir məfhuma çevriləcəkdir.

# Əlavə 1 – Hesabatda istifadə olunan akronimlərin siyahısı

AZN
Azərbaycan Yeni Manatı

AŞ
Avropa Şurası

AİHK
Avropa İnsan Haqları Konvensiyası

AİHM
Avropa İnsan Haqları Məhkəməsi

SMM
Seçki Monitorinq Mərkəzi

SMDT
Seçkilərin Monitorinqi və

Demokratiyanın Tədrisi Mərkəzi

“GBP”
Britaniya funt sterlinqi

SSHBK
Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt

İİF
İnternet İdarəçiliyi Forumu

ABTQ
Azərbaycan üzrə Beynəlxalq Tərəfdaşlıq Qrupu

RATİ
Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu

MHİ
Media Hüquqları İnstitutu

QHT
Qeyri-hökumət təşkilatı

DTİHB
Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu

ATƏT
Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

AŞPA
Avropa Şurasının Parlament Assambleyası

“MP”
Millət vəkili

“RTI”
Məlumat əldə etmə hüququ

“ARDNŞ”
Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

“TEAS”
Avropa Azərbaycan Cəmiyyəti

İHUD
İnsan Hüquqları haqqında Universal Deklarasiya

BMT
Birləşmiş Millətlər Təşkilatı

“USD”
ABŞ dolları




DEFENDING FREEDOM
OF EXPRESSION AND INFORMATION

ARTICLE 19 Free Word Centre 60 Farringdon Road London EC1R 3GA
T +44 20 7324 2500 F +44 20 7490 0566
E info@article19.org W www.article19.org

© ARTICLE 19